Günəş Şərqdən doğur!

❒ № 26 (5307), 2021-ci il

Qiymət 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 11 fevral 2021-ci il (cümə axşamı)




## 147 nəfər yoluxub, 4 nəfər vəfat edib

Azərbaycanda daha 236 nəfər COVID-19-dan sağalıb

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 147 yeni yoluxma faktı qeydə alınıb, 236 nəfər müalicə olunaraq sağalıb.

(Səh.2)

## 7 gün ardıcıl iş olmayacaq

Novruz bayramında qeyri-iş günləri açıqlandı



**2021-ci ildə Novruz bayramında qeyri-iş günləri məlum olub.**

Nazirlər Kabinetinin 2021-ci il üçün Novruz bayramı günlərinin müəyyən edilməsi ilə əlaqədar müvafiq qərarına əsasən, 2021-ci il martın 20, 21, 22, 23, 24-ü Novruz bayramı günləri müəyyən edilib.

(Səh.4)

## Günün içindən...



## Yenə toplaşırlar

Qarabağdakı vəziyyət ATƏT PA-nın qış sessiyasında müzakirə oluna bilər

**Dağlıq Qarabağ mövzusu ATƏT Parlament Assambleyasının 20-ci qış sessiyasında müzakirə oluna bilər.**

Bunu ATƏT-in nümayəndəsi deyib.

O bildirib ki, Azərbaycanın ATƏT PA-dakı nümayəndə heyətinin üzvləri sessiyada iştirak üçün qeydiyyatdan keçib.

(səh.2)

## Alimin səhhəti ağırlaşıb



Həkimlərdən fərqli fikirlər gəlir

(səh.4)

# Şuşa fatehi

## Qürurumuz Hikmət Paşa



“Generalın üzündə övladını itirmiş bir atanın kədəri var”

(səh.6)









- ✓ Koronavirusla mübarizəyə 2 milyard manata yaxın vəsait sərf olunub (səh.2)
- ✓ Türk həkimlər polkovnikimizin ayağını kəsilməkdən qurtardılar (səh.3)
- ✓ “Şərq"in könüllü yazarlarına sertifikat verildi (səh.4)
- ✓ Vətəndaş bir maşın özünə, birini də Gömrük Komitəsinə alır (səh.14)



## “Bu Vətən üçün könüllü ölümə getdik”

Hafiz Əhmədov: “Ermənilərin əsas hədəfi Mingəçeviri vurmaq və döyüşün taleyini öz xeyirlərinə həll etmək idi”

(səh.9)



## “İnanıram ki, Yusif Vəzirin Şuşadakı evi muzey kimi bərpa olunacaq”

Leyla Vəzirova: “Babamın evi Şuşanın “Hamamqabağı” məhəlləsindəydi”

(səh.8)



## Bütün hərbi hissələrdə bölmələrin tam təchizatı yoxlanılır

**Azərbaycan Ordusunda başlayan yeni tədris ili birlik, birləşmə, hərbi hissə, xüsusi təyinatlı hərbi təhsil müəssisələri və idarəetmə orqanlarında davam edir.**

Ali Baş Komandanın tələblərinə, Müdafiə nazirinin əmr və sərəncamlarına uyğun olaraq yeni tədris ilində Azərbaycan Ordusu qarşısında qoyulan tapşırıqlar ölkə hüdudları çərçivəsində, xüsusilə də azad edilmiş ərazilərdə real təhdid və risklərin qarşısının alınmasının təmin olunmasına yönəldilib.

Yeni tədris ilinin başlanması ilə əlaqədar bütün hərbi hissələrdə şəxsi heyətə sıra baxışı keçirilir, bölmələrin maddi-tədris bazası və tam təchizatı yoxlanılır.

Müdafiə nazirinin göstərişi ilə şəxsi heyətlə bölmələrin sərəncamında olan müasir silah, hərbi texnika və digər döyüş vasitələrinin dərindən öyrədilməsi və onların müxtəlif iqlim və çətin relyef şəraitində tətbiqi üzrə nəzəri və praktiki dərslər keçirilir, hərbi qulluqçuların sağlamlığına xüsusi diqqət göstərilir.

## Yerevanda əsgər yaxınları Rusiya səfirliyi qarşısında aksiya keçirib



**Yerevanda Qarabağ müharibəsi zamanı itkin düşmüş hərbçilərin yaxınları aksiya keçirib.** Trend-in erməni KİV-lərinə istinadən məlumatına görə, aksiya Rusiya səfirliyinin qarşısında olub.

Qeyd olunur ki, aksiya iştirakçıları Zəngilan istiqamətində itkin düşmüş əsgərlərin qaytarılması üçün Rusiyadan kömək istədiklərini deyib. Əsgər yaxınları bildiriblər ki, həmin hərbçilərin həlak olmadığı, əsir düşdüyü barədə məlumatlar alıblar.

## 147 nəfər yoluxub, 4 nəfər vəfat edib

### Azərbaycanda daha 236 nəfər koronavirusdan sağalıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 147 yeni yoluxma faktı qeydə alınıb, 236 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 4 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 231 509 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 225 914 nəfər müalicə olunaraq sağalıb, 3 167 nəfər vəfat edib, aktiv xəstə sayı 2 428 nəfərdir. *Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 7 298, ötən müddət ərzində isə ümumilikdə 2 470 908 test aparılıb.*

# Baş nazir tapşırıq verib

## MEDİA inzibati bina ilə təmin olunacaq



**Baş nazir Əli Əsədov "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanının icrasının təmin edilməsi barədə" sərəncam imzalayıb.**

Sərəncama əsasən, baş nazir İqtisadiyyat Nazirliyinə müvafiq tapşırıqlar verib.

İqtisadiyyat Nazirliyi Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi (MEDİA) və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla dövlət qeydiyyatına alındığı gündən MEDİA-nın inzibati bina ilə təmin edilməsi və maddi-texniki təminatı ilə bağlı təkliflərini on beş gün müddətində Nazirlər Kabinetinə təqdim etməli, Agentlik "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı gündən on beş gün müddətində Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun balansındakı əmlakın Agentliyin balansına verilməsini təmin edib, Nazirlər Kabinetinə məlumat verməlidir.

Razılaşdırma prosesinin iştirakçıları *(əsas və birgə icraçılar)* bu Sərəncamın icrası ilə bağlı normayaratma vəzifələrindən irəli gələn məsələlər üzrə *(layihə və təkliflərin baxılması, hazırlanması, razılaşdırılması, təqdim edilməsi və s.)* müvafiq tədbirlər görüb icra vəziyyəti tələb etdikdə, məlumatları icra üçün ayrılmış müddətin birinci yarısı başa çatanadək Nazirlər Kabinetinə təqdim etməlidir.

Sərəncam imzalandığı gündən qüvvəyə minir.



## Yenə toplaşırlar

### Qarabağdakı vəziyyət ATƏT PA-nın qış sessiyasında müzakirə oluna bilər

**Dağlıq Qarabağ mövzusu ATƏT Parlament Assambleyasının 20-ci qış sessiyasında müzakirə oluna bilər.**

Bunu Trend-ə ATƏT-in nümayəndəsi deyib.

O bildirib ki, Azərbaycanın ATƏT PA-dakı nümayəndə heyətinin üzvləri sessiyada iştirak üçün qeydiyyatdan keçib. Onun sözlərinə görə, bu, ATƏT regionunda, o cümlədən Azərbaycanla bağlı məsələlərin müzakirəsi üçün imkan yaradır:

"Adətən, bu görüşlərdə Qarabağdakı vəziyyət müzakirə olunur. Baş vermiş İkinci Qarabağ müharibəsi fonunda bu il də bunu gözləmək olar".

*Qeyd edək ki, ATƏT PA-nın qış sessiyası fevralın 24-dən 26-dək onlayn formatda keçiriləcək.*

## Koronavirusla mübarizəyə 2 milyard manata yaxın vəsait sərf olunub

**Koronavirusla (COVID-19) mübarizəyə 2020-ci ilin dövlət büdcəsindən 1 mlrd. 985,6 mln. manat vəsait sərf olunub.**

APA-nın məlumatına görə, bu barədə Maliyyə Nazirliyinin ictimaiyyətlə əlaqələr sektorunun müdiri Mais Piriyev bildirib.

# Rusiyanın həmsədrləri yenidən dövriyyəyə gətirməsi anlaşılandır

### Moskva öz üzərində ciddi mənada Azərbaycan və Türkiyənin təzyiqini, nəzarətini hiss edir




**Rusiya xarici işlər nazirinin müavini Andrey Rudenko ATƏT-in Minsk qrupu həmsədrlərinin fəaliyyətindən danışıb. Rusiyalı diplomat deyib ki, həmsədrlər fəaliyyətini davam etdirməlidir. Onun fikrincə, bu format Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının baza prinsiplərinin işlənib hazırlanmasına vacib töhfə verib.**

Nazir müavininin sözlərinə görə, bu töhfələrin çoxu 10 noyabr 2020-ci il bəyanatında öz əksini tapıb: "Həmsədrlərə həvalə olunan hərtərəfli siyasi nizamlanmaya nail olmaq əvvəlki kimi tələb olunan vəzifədir. "Üçlük" güclü beynəlxalq dəstəyə malikdir və status məsələsi daxil olmaqla gələcək addımlara qarşılıqlı məqbul yanaşmaların işlənib hazırlanmasında faydalı ola bilər. Lakin vaxtı çatanda, ehtiyatlı və tələsməyərək. İndi ATƏT-in Minsk qrupu, onun həmsədrləri ermənilərlə azərbaycanlılar arasında etimad tədbirlərinin gücləndirilməsində fəal ola bilər". Rusiyalı rəsmilər Minsk qrupunun həmsədrlərini tamamilə gündəmdən çıxartmır və ara-sıra "vasitəçilərin zəruriliyindən" danışırlar. Lakin hələlik "üçlüyün" siyasi tənzimləmələrdə rol oynamasının vaxtının yetişmədiyini dilə gətirirlər.

**Rudenkonun açıqlamasını "Şərq"ə dəyərləndirən politoloq Əhəd Məmmədli bildirib ki, 10 noyabrdan sonra Moskva öz üzərində ciddi mənada Azərbaycan və Türkiyənin təzyiqini, nəzarətini hiss edir.** Ekspertin sözlərinə görə, Qarabağda erməni quldurlarının təxribatlarının qarşısının alınması, ələ keçirilən terrorçuların geri verilməməsi rəsmi Bakının qətiyyətini ortaya qoyub: "Ağdamda Türkiyə-Rusiya Monitorinq Mərkəzinin fəaliyyətə başlaması müsbət nəticəsini verməkdədir. Məlumdur ki, Azərbaycanın başqa ərazilərində də Türkiyə hərbçiləri var və zəruri məqamda rəsmi Bakı bunu açıqlayacaq. Moskva qarşıdakı dönəmdə Ankara və Bakı tərəfindən daha çox təzyiqlə üzləşərsə, Qarabağdakı proseslərə həmsədrlər bəhanəsi ilə Qərb ölkələrini də qoşmağa çalışacaq. Əgər Kremlin maraqları ilə üst-üstə düşsə, Rusiya Qarabağa ABŞ və Fransa sülhməramlılarının gəlməsini də təklif edər. Məqsəd Ankara-Bakı tandeminin qarşısında koalisiya şəklində əks cəbhə yaratmaqdır. Əlbəttə, Türkiyə və Azərbaycan hökuməti buna qətiyyən imkan verməməlidir. Mümkün qədər çalışmalıyıq ki, Qarabağda rus sülhməramlılarının fəaliyyətinə birdəfəlik son verək. Əks halda proses uzanacaq və Moskva hər fürsətdə Minsk qrupunun həmsədrlərini gündəmə gətirəcək. Cənubi Qafqazın qapısını yenidən vasitəçilərin üzünə açmaq olmaz".

**İsmayıl Qocayev**



## "Qış təlimi-2021"də tank və toplarla tapşırıqlar icra olunub

**Türkiyə Milli Müdafiə Nazirliyi Qars şəhərində keçirilən "Qış təlimi-2021" birgə təlimlərdən yeni görüntülər yayımlayıb.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, təlimlərin növbəti mərhələsində tanklar və toplar ilə tapşırıqlar icra olunub.

Təlimlər fevral ayının 12-dək keçiriləcək.

*Qeyd edək ki, "Qış təlimi-2021" Türkiyə Silahlı Qüvvələrinin və Əlahiddə Ümumqoşun Ordunun bölmələrinin iştirakı ilə keçirilir.*

## Dörd ay sonra şəhidlik xəbəri gəldi

İki bacının yeganə qardaşı Şabran rayonunda torpağa tapşırılacaq



**Vətən müharibəsində itkin düşmüş hərbçimizin şəhid olması xəbəri gəlib.**

Sputnik Azərbaycan-ın məlumatına görə, Şabran rayon Surra kənd sakini, 2002-ci il təvəllüdlü Ağayev Əmirağa Mahir oğlu iyul ayında hərbi xidmətə yola düşüb. Müharibə başlayan gündən döyüşlərdə iştirak edib. Ailəsi ilə son danışığı oktyabr ayının 11-də olub.

Ondan sonra ailə Əmirağadan heç bir xəbər ala bilməyib. O, Füzuli döyüşlərində itkin düşüb.

Şəhid iki bacının bir qardaşıdır. Şəhid Ağayev Əmirağa bu gün günorta saatlarında doğulduğu Şabran rayonunda torpağa tapşırılacaq.

## Protez ayağa möhtac qalacaqdı

Türk həkimlər polkovnikimizin ayağını kəsilməkdən qurtardılar



**Azərbaycan Ordusunun polkovniki Famil Məmmədovun ayağı Türkiyədə amputasiya olunmaqdan qurtulub.**

Bu barədə Sputnik Azərbaycan Türkiyənin "Haberler" saytına istinadla məlumat yayıb. Ayağının daban nahiyəsində problem yaranan Məmmədov əvvəl Naxçıvanda müayinə olunub, ancaq ağrı aradan qalxmadığına görə sonradan Ərzurum Şəhər Xəstəxanasına müraciət edib. Bu xəstəxanada sol ayağında damar tıxanıqlığı aşkarlanan hərbçimiz tətbiq olunan müalicə nəticəsində ayağının kəsilməsi riskindən qurtulub. Məmmədov göz yaşları içində həkimlərə təşəkkür edib. Ərzurum Şəhər Xəstəxanasının ürək-damar cərrahı, professor Əli Kayqan əməliyyat nəticəsində Məmmədovun sol ayağındakı damar tıxanıqlığının aradan qaldırıldığını bildirib. Həkim polkovnikin iki gün ərzində evə yazılacağını deyib. "Famil Məmmədov pandemiyadan sonra xaricdən qəbul etdiyimiz ilk pasiyent olub. Bir az da gec gəlsəydi, sol ayağını dizdən aşağı amputasiya etmək məcburiyyətində qalacaqdıq, yəni protez ayağa möhtac olacaqdı", - deyə Kayqan bildirib.

# Əsgərləri donvurmadan qorumaq üçün iş aparılır

"Sərt iqlim şəraitinə malik ərazilərdə xidmət keçən şəxsi heyət fiziki və psixoloji yoxlamalardan keçməlidir"



**Qış mövsümü ərzində Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyəti arasında rast gəlinən mühüm problemlərdən biri də donvurmadır. Yüksək dağlıq rayonlarda hava şəraitinin tez-tez dəyişməsi, hündürlük artdıqca havada oksigenin azalması, eləcə də fiziki və psixi yorğunluq hərbi qulluqçulara ciddi təsir göstərir.**

Bəzi hallarda isə döyüş mövqeyində olan hərbçilər arasında donvurma hallarına səbəb olur. Donvurmaya adətən, bədənin açıq yerləri - burun, qulaq və ətraflar məruz qalır. Soyuq və şaxtalı havalarda dar və ya nəm ayaqqabı, ayaqların tərləməsi, əlcəksiz iş görmək, hərəkətsizlik, fəslə uyğun olmayan paltar geyinmək və ya nəmli paltar donmaya əlverişli şərait yaradır. Buna görə də bu xəstəliklərin qarşısının alınması üçün Azərbaycan Ordusunda mütəmadi olaraq profilaktik tədbirlər görülür. Müxtəlif iqlim xüsusiyyətlərinə malik ərazilərdə hərbi qulluqçular hava şəraitinə müvafiq geyimlərlə təmin edilirlər. Silahlı Qüvvələrin Baş Sanitar həkimi, tibb xidməti polkovnik-leytenantı Surxay Məmmədov qeyd edib ki, donvurma çox vaxt şaxtalı qış günlərində, temperatur 10 dərəcədən aşağı olduqda baş verir. Lakin uzun müddət yataqxanadan kənarda qaldıqda, hətta bəzən havanın temperaturu 0 dərəcədən yuxarı olduqda, yaz və payız aylarında da rast gələ bilər. Donvurmaya məruz qalmamaq üçün görülən qabaqlayıcı tədbirlərdən danışan həkim bildirib ki, xidməti yerlərinə göndərilməzdən əvvəl hərbi qulluqçular tibb məntəqəsində müayinədən keçirilir, ehtiyac olduqda hospitallarda dərin tibbi müayinə aparılır. Hərbi hissələrdə donvurmaların qarşısının alınması üçün isə metodik köməklik göstərilməsi məqsədilə Müdafiə Nazirliyinin Tibb Baş İdarəsi tərəfindən telefonoqramlar və məktublar göndərilir. Hərbi həkimlər tərəfindən şəxsi heyət məlumatlandırılır.

### "Dəniz səviyyəsindən xeyli yüksək ərazilərdə xidmət göstərən hərbçilərin qida rasionu, şəraiti də fərqli olur"

**Hərbi ekspert Ədalət Verdiyev "Şərq"ə açıqlamasında vurğulayıb ki, sərt iqlim şəraitinə malik ərazilərdə xidmət keçən şəxsi heyət fiziki və psixoloji yoxlamalardan keçməlidir.** Ekspertin sözlərinə görə, müvafiq yoxlamadan sonra hərbçilər bütün zəruri vasitələrlə, xüsusi isti geyimlər, yataq dəstləri, qızdırıcı avadanlıqlara təchiz olunur və xidmətə göndərilir: "İqlim şəraiti çox sərt olan, dəniz səviyyəsindən xeyli yüksək ərazilərdə xidmət göstərən hərbçilərin qida rasionu, şəraiti də fərqli olur. Həmçinin, manqa, tağım və bölüklərdə sanitar-atıcılar, yaxud ştatdankənar sanitarlar təyin olunurlar. Taborlarda isə tibb məntəqələri daim fəaliyyət göstərir. Bu məntəqələrdə bir neçə sanitarla bərabər müxtəlif ixtisaslar üzrə peşəkar həkimlər çalışır. Qış aylarında, şaxtalı günlərdə donvurmaya qarşı təcili tədbirlərin həyata keçirilməsini öyrətmək məqsədi ilə heyət arasında xüsusi kurslar, maarifləndirici işlər görülür. Birinci Qarabağ müharibəsində ayaq nahiyəmi, barmağımı don vurmuşdu. Hərbi məktəbdə praktikada olarkən də belə halla qarşılaşmışdım".

*Ə.Verdiyev vurğulayıb ki, çox vaxt insan donvurmanı hiss etmir. Bəzi hallarda isə yuxuda olarkən donvurma baş verir:* "Ona görə də komandir davamlı olaraq profilaktik tədbirlər görməli, növbə çəkən heyəti daim nəzarətdə saxlamalıdır. Eyni zamanda kəskin soyuqlar zamanı şəxsi heyətin qidalanmasına və isti geyimlərlə təchizatına xüsusi önəm verilməlidir. Müharibədən sonra Azərbaycan Ordusunda təchizatla bağlı tədbirlə tam şəkildə həyata keçirilir. Şəxsi heyətin donvurmadan zərər çəkməməsi üçün bütün zəruri addımlar atılır. Təbii ki, bütün tədbirlərlə yanaşı, zabit və əsgərlər öz qayğılarına qalmalı, donvurma və digər xəstəliklərin zərərlərindən maksimum qorunmalıdırlar".

**İsmayıl Qocayev**

# Rudenkonun açıqlaması həlledici deyil

**Minsk qrupunun fəaliyyətinə Azərbaycan tərəfi qərar verəcək**

Fevralın 9-da Moskvada Azərbaycan və Rusiyanın xarici işlər nazirləri müavinlərinin görüşü olub. Azərbaycan Xarici işlər nazirinin müavini Xələf Xələfov rusiyalı həmkarı Andrey Rudenko ilə görüşüb. Görüş zamanı ikitərəfli, regional və beynəlxalq gündəliyə dair aktual məsələlər müzakirə edilib.

A.Rudenko müzakirələrdən sonra TASS-a müsahibəsində bəzi məqamlara toxunub. O qeyd edib ki, ATƏT-in Minsk qrupunun həmsədrləri fəaliyyətini davam etdirməlidir. Rusiyalı diplomat bu formatın Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının baza prinsiplərinin işlənib hazırlanmasına vacib töhfə verdiyini bildirib.

A.Rudenko həmçinin söyləyib ki, Rusiya-Türkiyə Birgə Mərkəzinin fəaliyyətə başlaması regionda vəziyyətin normallaşmasına istiqamətlənmiş birgə səylərə yaxşı nümunədir.




**Rusiyalı diplomatın açıqlaması barədə "Şərq"ə danışan sabiq xarici işlər naziri Tofiq Zülfüqarov bildirib ki, Minsk qrupunun fəaliyyətinə aid qərarın qəbul edilib-edilməməsini Azərbaycan tərəfi müəyyənləşdirəcək:**

"Türkiyə-Rusiya Birgə Mərkəzinin fəaliyyətinə gəlincə, bu mərkəzin yaranma əsasları çoxdur. Əsas səbəblərdən biri odur ki, iki dövlət dünyada öz yerini və mövqeyini axtarırlar. Rusiya sovet ittifaqının süqutundan sonra azalan nüfuzunu qorumaq üçün qərblə siyasətini formalaşdırır. Türkiyə isə əksinə, güclənən regional bir dövlətdir və istəyir ki, dünyada öz yerini tutsun. Hər iki ölkənin bu məsələdə mövqeləri üst-üstə düşür. İndi Rusiya və Türkiyənin əməkdaşlıq etdiyi bir dövrdür".

**Yeganə Bayramova**

# "Şərq"in könüllü yazarlarına sertifikat verildi

## "Layihədə BDU-nun Jurnalistika fakültəsinin 12 tələbəsi iştirak etdi"







**Bu gün ötən ilin noyabrın 1-də elan olunan "Şərq" qəzetinin "Könüllü yazarlar" hərəkatı başa çatdı. "Şərq"in redaksiyasında keçirilən tədbirdə baş redaktor Akif Aşırlı tələbə-jurnalistlərə uğurlar arzuladı.**

Müasir media işçisinə verilən tələblərdən danışan baş redaktor, həmçinin bildirdi ki, redaksiyanın qapısı gənclərin üzünə daim açıqdır.

Onlar istədikləri vaxt gələ, yazılarının dərc olunması üçün müraciət edə bilərlər. Ardınca iştirakçılara sertifikatlar təqdim olundu.

Tələbə-jurnalistlər yaradılan şəraitə görə qəzet rəhbərliyinə təşəkkür etdilər.

*Qeyd edək ki, bir neçə ay davam edən layihədə BDU-nun Jurnalistika fakültəsinin 12 tələbəsi iştirak etdi. Onlar həmin müddətdə jurnalistikanın praktik məsələlərini öyrənməklə yanaşı, həm də yiyələndikləri nəzəri bilikləri tətbiq etdilər.*

**Kənan**

# 7 gün ardıcıl iş olmayacaq

## Novruz bayramında qeyri-iş günləri açıqlandı



**2021-ci ildə Novruz bayramında qeyri-iş günləri məlum olub.** Nazirlər Kabinetinin 2021-ci il üçün Novruz bayramı günlərinin müəyyən edilməsi ilə əlaqədar müvafiq qərarına əsasən, 2021-ci il martın 20, 21, 22, 23, 24-ü Novruz bayramı günləri müəyyən edilib. 2021-ci il martın 20-21-i həftənin şənbə və bazar günlərinə təsadüf etdiyindən, Əmək Məcəlləsinə əsasən iş və istirahət günlərinin yerləri dəyişdiriləcək.

Beləliklə, martın 25-i və 26-sı da qeyri-iş günü olacaq.

Novruz bayramı ilə əlaqədar 7 gün ardıcıl (20, 21, 22, 23, 24, 25, 26 mart) iş olmayacaq.

Qeyd edək ki, Azərbaycanda bu il Novruz çərşənbələrinin qeyd olunacağı tarixlər də məlumdur.

Bu il ilk - Su çərşənbəsi fevralın 23-nə təsadüf edəcək. Daha sonra martın 2-də Od, 9-da isə Yel çərşənbəsi olacaq.

Novruzun ilaxır - Torpaq çərşənbəsi isə martın 16-da qeyd ediləcək.



# Qarabağda demoqrafik vəziyyət xeyrimizə dəyişəcək

## Şuşa, Laçın və Kəlbəcərdə əhalinin məskunlaşması başlıca şərtdir

"Qarabağın dağlıq hissəsində, hazırda ermənilər yaşayan rayonlarımızda tezliklə demoqrafik vəziyyət Azərbaycanın xeyrinə dəyişəcək".

Bunu "Şərq"ə açıqlamasında İrəvan Azadlıq Təşkilatının sədri, Qərbi Azərbaycan İrəvan Respublikasının sözçüsü Təbriz Musayev deyib.

Birlik rəhbəri vurğulayıb ki, işğal nəticəsində öz yurd-yuvalarından didərgin düşmüş insanımızın sayı 28 il əvvəl 700 min nəfəri ötürdü. Həmin ərazilərdə yaşayan ermənilərin sayı isə hətta özlərinin şişirtmə rəqəmləri ilə desək, 150 min nəfəri keçməyib: "Əhali artımı nəticəsində məcburi köçkünlərimizin sayı milyonu ötüb. Qarabağın dağlıq hissəsində ermənilərin sayı Rusiyanın bütün səylərinə baxmayaraq, 52-53 min nəfəri keçmir. Ona görə də ilkin vəzifəmiz Xankəndi daxil olmaqla, Xocalı və Xocavəndə azərbaycanlıların köçürülməsini təmin etməkdir. Bölgədə demoqrafik vəziyyət zamanla bizim xeyrimizə dəyişəcək. Təkcə Xankəndində yaşamış və bu gün ata yurdlarına qayıtmaq istəyən insanlarımızın sayı 15 minə yaxındır. Bu, böyük rəqəmdir. Xocalı və Xocavənddən olan vətəndaşlarımızı da əlavə etsək, say etibarı ilə orada olan ermənilərdən çox oluruq. Nəzərə alaq ki, 53 min ermənin heç də hamısı həmin bölgədə yaşamış insanlar deyil. Ermənistanın ayrı-ayrı yerlərindən Qarabağa qanunsuz köçürmələr olub və təəssüf ki, proses bu gün də davam edir. Bizim doğma yurdlarımıza kütləvi axınımızdan sonra əmin olun ki, müxtəlif vasitələrlə oraya toplanmış ermənilər tədricən torpaqlarımızı tərk edib Ermənistana qayıdacaqlar".

**T.Musayev hesab edir ki, Xankəndi, Xocalı və Xocavəndə vətəndaşlarımızın köçürülməsini təmin etmək üçün ilk növbədə nəzarətimizdə olan ərazilərə köç prosesi başlamalıdır:** "Xankəndi və ətraf rayonlarda insanlarımızın özlərini təhlükəsiz hiss etmələri üçün Şuşa, Laçın və Kəlbəcərdə əhalinin məskunlaşması başlıca şərtdir. Bundan sonra dörd tərəfi azərbaycanlılarla əhatə olunan Xankəndi və ətraf rayonlarda yaşayan ermənilər heç bir neqativ fəaliyyətə təşəbbüs göstərə, özbaşınalıq edə bilməyəcəklər. Köçürülmə prosesinin ardıcıllıqla həyata keçirilməsi erməni etnosu ilə bag?lı beynəlxalq aləmdə bizə qarşı əsassız ittihamlara yer qoymayacaq".

**İsmayıl Qocayev**

# Alimin səhhəti ağırlaşıb

## Həkimlərdən fərqli fikirlər gəlir

### Dostu xəstəxanadan şikayətçidir, müalicəsi sistemli aparılmayıb



Tanınmış tarixçi-alim, Bütöv Azərbaycan Ocaqları başqanının ideoloji məsələlər üzrə müavini Dilavər Əzimli 1 aydan çoxdur Fövqəladə Hallar Nazirliyinin Zığ qəsəbəsində yerləşən modul tipli xəstəxanasında koronavirusla mübarizə aparır. Bu ilin yanvarın 4-də xəstəxanaya yatırılan tarixçinin durumu heç də qənaətbəxş deyil.



**Faiq Ələkbərli:** *"Keyfiyyətli iynə-dərmandan istifadə etmədikləri üçün səhhəti düzəlmir"*

**Aynur Mirzəyeva:** *"Səhhətinin düzəlməməsi də məhz ciyərləri ilə bağlıdır"*

Tarixçinin yaxın dostu, BAO təmsilçisi, türkoloq-alim Faiq Ələkbərli Dilavər Əzimlinin səhhəti ilə bağlı ciddi narahatlıq keçirdiklərini deyib. F.Ələkbərli vurğulayıb ki, tarixçi adıçəkilən xəstəxanaya sapsağlam, ayaq üstə gedib.

Onun sözlərinə görə, əslində Dilavər Əzimli koronavirusdan sağalmışdı, sadəcə əlavə müalicə almaq və ciyərlərində hansısa fəsad qalmaması üçün Zığdakı xəstəxanaya yatırılmışdı: "Xəstəxanada EKMO aparatına qoşublar, amma vəziyyəti yaxşılığa doğru getmir. Bəlkə də keyfiyyətli iynə-dərmandan istifadə etmədikləri üçün səhhəti düzəlmir. Son məlumata görə, hətta ciyərlərinin 80 faizi süni aparat vasitəsi ilə işlədilir. Əgər müalicəsi, yaxud hər hansı preparatla bağlı nəyəsə ehtiyac varsa, biz BAO olaraq əlimizdən gələni etməyə hazırıq. Deyirlər ki, sepsis olandan sonra ağır immunitet preparatlarından istifadə olunub və bədənin immuniteti zəifləyib. Artıq orqanizm müalicəyə cavab vermir. Həkimlərdən də fərqli fikirlər gəlir. Açığı, xeyli vaxt keçib, çox narahat oluruq. Bəziləri haqlı olaraq düşünürlər ki, görünür, xəstəyə yetərli diqqət ayrılmır və sistemli müalicəsi təşkil olunmur".

Vəziyyətlə əlaqədar FHN-in Zığ qəsəbəsində yerləşən modul tipli xəstəxanası ilə də əlaqə saxladıq. **Xəstəxana rəsmisi, operator Aynur Mirzəyeva "Şərq"ə Dilavər Əzimlinin vəziyyətinin qənaətbəxş olmadığını təsdiqləyib:** "Dilavər müəllimin vəziyyəti ağır olaraq dəyərləndirilir. Hazırda ciyərləri 40 faizlə EKMO aparatına qoşuludur. Hələlik aparatdan ayırmaq mümkün deyil, çünki ciyərlərinin 60 faizi işləmir. Səhhətinin düzəlməməsi də məhz ciyərləri ilə bağlıdır. Bilirsiz ki, koronavirus ciyərləri məhv edir. Buna baxmayaraq, həkimlərimiz, heyətimiz əlindən gələni əsirgəmir, gecə-gündüz bütün xəstələrə yüksək diqqət və qayğı göstərirlər. Xəstəxanamız hər cür imkanlarla təmin olunub. Ən müasir tibbi avadanlıqlarla təchiz olunub və bütün preparatlar var".

**İsmayıl**



# 44 günlük dərsdən nəticə çıxaran ermənilər savaş istəmirlər

## "Revanş tələb edən xəyalpərəstlərin və siyasətçilərin cavabını isə erməni xalqı özü verməlidir"

44 günlük müharibənin Ermənistanın siyasi-iqtisadi həyatında açdığı yaralar və ölkənin düşdüyü kritik vəziyyət erməni rəsmiləri tərəfindən də etiraf edilir. Ermənistanın keçmiş müdafiə nazirinin müavini Artak Zakaryan ermənilərin heç vaxt bu qədər sınıq, narahat və məyus vəziyyətdə olmadıqlarını söyləyib. Onun sözlərinə görə, depressiyaya düşmüş ermənilər artıq heç kimə inanmırlar:

"İnsanları inandırmağa çalışırsan ki, cəsarətli, əmin olsunlar, həyat hələ davam edir, ruhdan düşmək olmaz. Amma xeyri yoxdur. Erməni xalqı ötən bir il içində aldığı psixoloyi zərbəni son yüz ildə almayıb. Bunun səbəbi isə hamıya məlumdur". Zakaryan yaxın gələcəkdə bölgədə ciddi dəyişikliyin baş verəcəyini bildirərək, ermənilərin buna hazırlıqlı olmalarını tövsiyə edib. Maraqlıdır ki, bir tərəfdən Ermənistandakı acınacaqlı vəziyyət, xalqın məyusluğu elə düşmənin özü tərəfindən etiraf olunur. Mövcud durumu düzgün dəyərləndirməyi bacaran erməni ekspertlər yolun sonuna gəldiklərini və bundan sonranın uçurum olduğunu dərk edirlər. Lakin Ermənistanda müəyyən qruplaşmaların israrla revanşizmdən dəm vurması, yeni müharibədən, torpaqların "geri qaytarılmasından" danışması göstərir ki, hələ də proseslərdən nəticə çıxarmayanlar var.

**Siyasi təhlilçi Anar İmanov "Şərq"ə açıqlamasında vurğulayıb ki, verilən dərsdən nəticə çıxarmamaq ermənilərin çoxdankı xəstəliyidir. Analitikin sözlərinə görə, ermənilər illər boyu uydurduqları illüziyalarla yaşayıblar:** "Ermənilər 1990-cı illərdən sonra miflər yaradıblar. Ağılları keçmişdə qalan ermənilər zənn edirdilər ki, keçən əsrin 90-cı illərində etdikləri vəhşilikləri yenə təkrarlayacaqlar. Bununla da işğal etdikləri torpaqlar onların nəzarətində qalacaq. Amma illər boyu rasional və praqmat siyasət aparan Azərbaycan ermənilərin mifik dünyasını 44 gündə darmadağın etdi. Ermənistanda müəyyən qruplaşmalar Birinci Qarabağ müharibəsindən istifadə edərək, hakimiyyətə gəlmişdilər. Uzun illər boyunca ölkəni faşist xunta idarə edirdi. İndiki revanşizm notlarının arxasında da həmin qruplaşmalar dayanır. Faşistlər növbəti dəfə Ermənistandakı qarışıqlıqdan istifadə edərək hakimiyyətə gəlməyi planlayırlar. Hesab edirlər ki, Azərbaycana qarşı yeni savaş açacaqlar və "qalib" gələcəklər. Görünür, onlar Azərbaycanın "dəmir yumruğ"unun nəyə qadir olduğunu dərk etməkdə çətinlik çəkirlər. Amma fakt odur ki, Ermənistan darmadağın olub və ayağa qalxması üçün uzun illər lazımdır. Revanşizmdən dəm vuran ermənilər bunu nə qədər tez anlasalar, özləri üçün yaxşı olar".

**A.İmanov qeyd edib ki, bəzi ermənilər ağır məğlubiyyəti hələ də həzm edə bilmirlər:** "Müharibə təkcə Ermənistana yox, bütün dünya ermənilərinə, diasporaya ağır zərbə vurdu. Nəzərə alaq ki, hazırda iki cür ermənilər mövcuddur. Birincilər, xarici ölkələrdə yaşayan, müəyyən dairələrin təlimatını həyata keçirən və sosial şəbəkələrdə ağlına gələni yazan ermənilərdir. İkincilər isə acınacaqlı durumda yaşayan real Ermənistan xalqıdır. Sonuncular 44 günlük dərsdən lazımi nəticəni çıxarıblar. Müharibənin və məğlubiyyətin nə olduğunu bilən ermənilər yeni savaş istəmirlər. Revanş tələb edən xəyalpərəstlərin və siyasətçilərin cavabını erməni xalqı özü verməlidir".

**İsmayıl Qocayev**

# Ermənilər indi də kütləvi surətdə Abxaziyaya köçür

## Gələcəkdə onlar Gürcüstan torpaqlarında da ərazi iddiaları qaldıra bilərlər



**2021-ci il fevralın 1-dən İrəvandan Rusiyanın müxtəlif şəhərlərinə mütəmadi reyslər bərpa olundu. Reyslərin bərpa olunmasıyla ermənilərin Ermənistandan axını başladı.**

Bu axının istiqaməti Abxaziyadır. Hətta sərhəd Psou çayından keçən erməni millətindən olan adamların statistikası naməlumdur. Amma sosial şəbəkələrdəki aktivliyə baxsaq görərik ki, söhbət minlərdən gedir. Bu hələ başlanğıcdır. Ermənistandan hələ ki, Abxaziyaya köçə bilməyən, amma buna niyyətlənən ermənilər üçün ya Krasnodar, ya da Abxaziya erməniləri "eniş məkanı" hazırlayırlar. Ermənilər köç məsələsini həm də sosial şəbəkələrdən yaşayış yeri və işlə bağlı da sualları çözməyə çalışaraq həll edirlər. Aydındır ki, Abxaziyanın ermənilərlə məskunlaşması prosesi nəzarətsiz və yayğın şəkildə gedir. Təbii ki, ermənilərin "yeni vətənə" köçü gürcüləri narahat etməkdədir. Bəs görəsən bu, gələcəkdə ermənilərin yeni torpaq iddialarına səbəb ola bilərmi?

**Suallarımızı cavablandıran politoloq Natiq Miri "Şərq"ə açıqlamasında bildirib ki, belə bir potensial təhlükə mövcuddur.** Onun sözlərinə görə, Abxaziyada bütün strukturlarda, xüsusilə də biznes strukturlarında ermənilərdir. Bu günləri ermənilər orada həm sosial, həm də iqtisadi yöndə qərar verirlər. Abxaziya sadəcə olaraq bir Gürcüstan torpağı sayılmış olsa da, əslində orada hegemon qüvvə ermənilərdir. Məhz buna görə də Ermənistan və Qarabağda yaşayan ermənilər daha çox Abxaziyaya getməyə maraqlıdırlar. Əlbəttə ki, gələcək perspektivdə eynən Qarabağda olduğu kimi, onlar Abxaziyada da müəyyən torpaq iddiaları qaldıra bilərlər. Hətta onun tamamilə erməni dövlətinə məxsus olduğunu iddia edə bilərlər. Belə bir potensial təhlükəni biz qardaş Türkiyədə də gördük. Buna görə də Gürcüstan dövləti də ermənilərin Abxaziyaya gəlişinə çox narahatdır".

**Aynurə**

# Şok vəziyyətdən ayıla bilmirlər

## "Qriqoryanın bəyanatı bizim üçün milçək vızıltısıdır"

Sosial şəbəkələrdə Rusiyadakı erməni diasporunun nümayəndəsi Norayr Qriqoryanın ermənilərin ideologiyası ilə bağlı dərc etdiyi paylaşım ciddi rezonans doğurub. Feysbuk səhifəsində erməni xalqına müraciət edən diaspora nümayəndəsi iddia edib ki, onların əsas məqsədi paytaxtı Soçi və ya Adler şəhəri olan erməni muxtariyyətini əldə etməkdir. Onun sözlərinə görə, bu ərazilər Ermənistanın tərkibinə daxil olacaq, sonradan Abxaziya da onlara birləşəcək:

"Abxaziya artıq bizimdir və bundan sonrakı "birləşmə" yalnız de-yure olacaq. "Böyük Ermənistan"a birləşmək üçün Gürcüstandan dəhliz tələb edəcəyik. Ermənilər orada xeyli əvvəl yaşayıblar. Bütün bu torpaqlar, eləcə də Dağıstan və Çeçenistan "Böyük Ermənistan"ın tərkibində idi". Qriqoryanın sözlərinə görə, Rusiya diasporunda hər bir erməni bu məqsədə nail olmaq üçün çalışmalıdır.

**Ermənilərin həyasız iddialarını "Şərq"ə dəyərləndirən Vəhdət Partiyasının sədr müavini, politoloq Vasif Əfəndiyev deyib ki, Azərbaycanın qələbəsindən sonra erməni cəmiyyəti şok vəziyyətindən çıxa bilməyib.** Çünki erməni xalqının beyni daim saxta və uydurma "dövlətçilik tarixi" nağılları ilə yuyulub. Ermənilər kütləvi psixoz halına salınıblar. Xalqın bu vəziyyəti dövləti istədiyi şərtlərlə idarə edən korrupsioner rejimlərə sərfəli idi. Baş nazir Nikol Paşinyan bu təbliğatın içərisində yetişməsinə baxmayaraq, az da olsa reallığı başa düşürdü. 44 günlük Vətən müharibəsindən sonra bütün ermənilər reallığın fərqinə vardılar. Gördülər ki, "Böyük Ermənistan" utopiyası sabun köpüyü kimidir və həqiqətlə yaxından-uzaqdan əlaqəsi yoxdur. Qriqoryanın Rusiya və Gürcüstan torpaqlarına ərazi iddiası isə ideoloji xarakterlidir. "Millətçilik" ideologiyası üzərindən hakimiyyətə gələn "Qarabağ klanı" sınmış erməni ruhunu diriltmək üçün belə fəndlərdən istifadə edir. Hazırda erməni cəmiyyətində qütbləşmə gedir. Hakimiyyət uğrunda "Qarabağ klanı"nın revanş istəkləri aydın görünür. Eks prezidentlərdən Serj Sarkisyan oyundan çıxarılsa da, Robert Koçaryan Rusiyanın dəstəyinə arxalanaraq hakimiyyətə can atır. Rusiya Paşinyanın devrilməsində maraqlı olsa da, hazırda buna imkan vermək istəmir. "Qarabağ klanı"nın rəhbərləri isə hakimiyyətə gedən yolu açmaq üçün müxtəlif variantlara əl atırlar. Qonşulara ərazi iddiaları da bu qəbildəndir".

**"Qonşu dövlətlərin ərazilərinə iddia etmək, boş xəyallar arxasınca sürünmək inkişaf yolu deyil və çox risklidir"**



**Siyasi şərhçi vurğulayıb ki, erməni millətçilərinin bu sayaq bəyanatları Rusiyada qıcıqlandırıcı effekt vermir:** "Təsəvvür edin, bənzər ifadələr Azərbaycanın hansısa siyasətçisi, yaxud blogeri tərəfindən gündəmə gəlsəydi, necə qiyamət qopardı. Dərhal Solovyov və Jirinovskini dövriyyəyə buraxardılar. Əfsuslar olsun ki, erməni həyasızlığına Rusiya və Gürcüstandan ciddi reaksiyalar gəlmir. Bəlkə də erməniləri ciddiyə almırlar. İstənilən halda Qriqoryan kimi adamların bəyanatları bizim üçün milçək vızıltısıdır. Azərbaycan hədəfini bilir və addım-addım ona doğru irəliləyir. Ermənistan durmadan inkişaf edən, hərtərəfli güclənən və əhalisinin sayı ilbəil artan türk dünyasının ortasında özbaşınalıq etməməli, dilini dinc, əlini fərağat saxlamalıdır. Qonşu dövlətlərin ərazilərinə iddia etmək, boş xəyallar arxasınca sürünmək inkişaf yolu deyil və çox risklidir".

**İsmayıl Qocayev**



# Şuşa fatehi

## Qürurumuz Hikmət Paşa

**Əzəmət, vüqar simasında məskən salmış bir adam düşünün. Gözlərindəki dərinlik, üzündəki məğrurluq nələr danışır, nələr Amma özü susur. Gördüklərini də, yaşadıqlarını da, elə özünü də gizlədir. O, sirr qutusudur, hər kəsə maraqlıdır. Şuşa fatehi, general-leytenant Hikmət Mirzəyevi deyirəm. Çoxları Vətən müharibəsində tanıdı cənab generalı. Bir də illərdir, keçdiyi şərəfli hərb yolu var.**

Onun haqqında məqalə hazırlayanda çox axtardım, oxuculara ətraflı məlumat vermək üçün araşdırdım. Bu məlumatlarda Hikmət paşanın yaşı da yazılmayıb. Sadəcə Biləsuvarda dünyaya göz açdığı məlumdur. Fəqət təvəllüdü neçədir bəlli deyil. Yalnız təxmin edə bilərik, hər halda 40-dan çox olar.

*Hə, Hikmət Mirzəyevin ömürlüyünə nəzər salırıq:*

Hikmət İzzət oğlu Mirzəyev Azərbaycan Silahlı Qüvvələri Xüsusi Təyinatlıların komandanıdır. Ümummilli Lider Heydər Əliyevin prezident olduğu illərdə polkovnik-leytenant hərbi rütbəsini daşıyıb. Ona polkovnik rütbəsini məhz Heydər Əliyevin özü təqdim edib. 19 yanvar 2002-ci il tarixində Ulu Öndərin sərəncamına əsasən Hikmət Mirzəyev general-mayor ali rütbəsinə layiq görülüb.

Eyni zamanda Hikmət Mirzəyev 2003-cü ildə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün müdafiəsində xüsusi xidmətlərinə, özünün xidməti vəzifələrini və hərbi hissəyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsində fərqləndiyi üçün Heydər Əliyevin fərmanına əsasən "İgidliyə görə" medalı ilə təltif edilib. 2015-ci ildə Prezident İlham Əliyev tərəfindən 3-cü dərəcəli "Vətənə xidmət" ordeninə layiq görülüb.

Hikmət Mirzəyev 2016-cı ilin aprelində aparılan hərbi əməliyyatların rəhbərlərindəndir. O zamankı 4 günlük döyüşlərdə qazandığımız zəfərlər, məhv edilən erməni qüvvəsi elə Hikmət Paşanın adı ilə bağlıdır.

44 günlük Vətən müharibəsində də Hikmət Mirzəyevin həm özü, həm də aslanları düşmənin nəfəsini kəsdi. Cəbrayıl rayonunun işğaldan azad edilməsi əməliyyatı generalın başçılığı ilə həyata keçirilib. Həmçinin Hikmət paşa və xüsusi təyinatlıları Şuşanın azad edilməsində misilsiz qəhrəmanlıq göstəriblər. Bu səbəbdən də onlara Şuşa fatehləri deyirlər. Həm də mənfurların canına müdhiş qorxu salıblar. Xüsusilə də qəhrəmanımız ermənilərin qorxulu röyası olub. Demə, düşmənə şok yaşatmaq üçün təkcə Hikmət paşanın adını çəkmək kifayət imiş.

Ali Baş Komandan Cəbrayılın və Şuşanın işğaldan qurtuluşu münasibətilə H.Mirzəyevlə danışaraq, ona təbriklərini çatdırıb.

Müharibədən sonra ölkə başçısı generala "Vətən müharibəsi qəhrəmanı" adı verib, onu Cəbrayıl, Füzuli, Qubadlı, Kəlbəcər və Şuşanın azad olunmasına görə medalları ilə təltif edib. Tarixi 10 dekabr paradında Hikmət komandanla birlikdə Xüsusi Təyinatlı Qüvvələrin bir hissəsi xalqın qarşısına çıxdılar. Hər kəs kimi mənə də paşamız maraqlı gəlirdi, onun üzünə diqqətlə baxdım. Simasındakı ifadəni sözlə izah edə bilmərəm. Amma bir cümlə oxudum və hisslərimə tərcüman oldu: "Generalın üzündə övladını itirmiş bir atanın kədəri var". Bəli, o ağrını hiss etmək olurdu. Lakin qüruru və məğrurluğu, özünəməxsus şux duruşu da yerində idi, dosta fəxarət, düşmənə göz dağı verirdi.

## "Generalın üzündə övladını itirmiş bir atanın kədəri var"

Onun haqqında sosial şəbəkələrdə bir əfsanə dolanır: "Hikmət Mirzəyev çox sərt xarakterə malik, təmkinli, soyuqqanlı və hər bir addımını yüz ölçüb-biçən hərbçidir. Onu təəccübləndirmək və nə isə diktə etmək çətin məsələdir. Üz cizgiləri hər şeyi deyir. Ancaq internatda böyüyən əsgəri şəhid olanda H.Mirzəyev onu qucaqlayıb, hönkürhönkür ağlayıb".

İnanıram.

O sərt baxışların arxasında belə qəlbi təmiz, kövrək adamın olduğuna əminəm. Zatən ona görə araşdırmaq istədim Hikmət paşanı. Onu tanıyanları tapmaq üçün çox çalışdım. Həm ünvanına yazılan rəylərə, həm də statuslara nəzər yetirdim. Hikmət komandanla bağlı feysbukda "comment" yazan Rəşədat Mirzəyev onu qiyabi tanıdığını bildirib: "Mən Hikmət Mirzəyevi 20-22 il öncədən tanıyıram. Haqqında xeyli xoş söz eşitmişəm. Mərhum əmim oğlu Məhəmməd Mirzəyev onun mühafizə xidmətində "N" saylı hərbi hissədə əsgərlikdə olub. Bir ildən çox xidməti müddətində danışdıqlarından Hikmət paşanı yaxından tanıyır kimiyəm. O, əsgərini sevən zabit və komandirdi.

Əmim oğlu əsgərliyini Hikmət Mirzəyevlə birgə keçirmişdi. Heyf ki, bu gün onun adını eşidəndə Məhəmmədə müjdə verə bilmirəm. Hikmət Mirzəyev Azərbaycan Respublikasının qürurudur".

## "Haqsızlığa qarşı dözümlüdür. Vallah, o, bir nağıldır"

Şübhəsiz ki, elədir. Hikmət paşayla biləsuvarlılar xüsusilə qürur duyur. Bu rayondan olan Nurlan Mirəli söyləyir ki, o uşaq olanda Hikmət Mirzəyev rayondan çıxıb. Ona görə yaxından tanımır, amma fəxr edir: "Onunla eyni rayonda doğulmuşuq, eyni küçələrdən keçib, məktəbə getmişik. Eyni məhəllələrdə oynamışıq, eyni kanalın suyunu içmişik. Qardaşını, qardaşı və bacısı uşaqlarını, bütün qohum-əqrəbasını tanıyırıq, çox səmimi olduğumuz yaxınları var. Bunun qürurunu yaşamaq başqa hissdir. Bütün yaşananlar tarixdir və tarix yazılırsa, orda Şuşa fatehi Hikmət Mirzəyev də var. Qürurumuzsan, paşam".





*N.Mirəlinin statusuna Hikmət MİrzəyevI tanıyanlar, sevənlər ürək sözlərini yazıb.*

**İlkin Əsədov:** Fikri hələ də müharibədədir. Daha az igidimi itirmək üçün nə etsəydim, deyə fikirləşir. Gözləri bunu deyir.

**Zeynal Ağayev:** Mən fərqli Hikmət gördüm, belə deyildi. O qədər xəyanət onu dəyişmədi. Amma son itkilər generalı çox incidir. Hikməti ad alması ilə bağlı təbrik etdim. Dedi, hamısı uşaqların sayəsindədir. Mən nə etmişəm ki? Heyif, Hikməti yaxından tanımırsız. Sadə, vətənpərvər insandır. Haqsızlığa qarşı dözümlüdür. Vallah, o, bir nağıldır.

*Jurnalist Elçin Alıoğlu isə Hikmət Mirzəyevlə döyüşdə üz-üzə gəlməyin intihar olduğunu düşünür:* "O, dünyanın istənilən bölgəsində, istənilən relyefdə *(dağ, meşə, səhra, su və s.)* mümkünsüz olan hərbi əməliyyatları həyata keçirə bilən sərkərdədir. Döyüşdə Hikmət Mirzəyevlə üz-üzə gəlmək rəsmən intihar deməkdir. Onun xüsusi əlbəyaxa döyüş bacarığı, soyuq və odlu silahlardan möcüzəvi şəkildə istifadə etmək məharəti sadəcə inanılmazdır. Biz bütün bunları filmlərdə görmüşük. Şuşanın işğaldan azad edilməsi bunun təsdiqidir. Ali Baş Komandan İlham Əliyevin Hikmət Mirzəyevi Şuşanın işğaldan azad edilməsi münasibəti ilə təbrik etməsi təsadüf deyildi".



**Onunla birgə savaşan və adının çəkilməsini istəməyən igidlərindən biri xatirələrini belə yada salır:** "Çox sərt və qəddar görünür. Lakin bir o qədər də həssas, istiqanlı insandır. O, qorxu nədir bilmir, tanımır. Döyüşdə mərmilər yağış kimi səpələnirdi. Bir tərəfdən də snayperlər nişan alırdı, başımızı qaldıra bilmirdik. Amma o, uzaqdan bizi gördü, ayaq üstə, yeriyə-yeriyə yanımıza gəldi. Bir az söhbət elədi ki, kefimiz açılsın. Sonra eynilə mərmi yağışının içindən durdu, getdi. Hətta bizim uşaqlardan biri qalxıb, onu snayper atəşindən qorumaq üçün yanında getmək istədi. General dedi ki, siz özünüzü qoruyun, məndən nigaran qalmayın. Ümumiyyətlə, çox mərd və cəsarətli adamdır. Öz şəxsi heyətini, XTQ mənsublarını kimsə əzdirməz. Bir də nə isə problemimiz olanda, başqaları kimi incitmək əvəzinə arxamızda durur. Məsələ həll olunana kimi bizdən əl çəkmir. Belə bir cəngavər savaşçıdır".

**Hərbi ekspert Ədalət Verdiyev də Hikmət Mirzəyevlə bağlı fikirlərini "Şərq"lə bölüşüb:** "Onunla 1992-ci ildə birgə xidmət etmişəm, sonra ayrılmışam. Bilirəm ki, həm birinci, həm də ikinci Qarabağ savaşında kifayət qədər uğurla iştirak edib. Hikmət peşəkar hərbçidir. Əvvəlcə hərbi məktəbi, sonra Türkiyədə hərbi akademiyanı bitirib. Ardınca Xüsusi Təyinatlıların kurslarından sertifikatlar alıb.

Azərbaycanda hərbçi kimi nümunə axtarsaq, birinci general-leytenant Hikmət Mirzəyevi göstərmək olar. Sadə olmaqla yanaşı tələbkar, peşəkar, öz işinin ustasıdır.

Məsələn, müharibə dövründə döyüş zonasında əllərində telefonla ortalıqda dolaşanları var idi. Bunun bizə ziyanı da dəydi. Heç bir dəfə də Hikmətdən uyğunsuz hərəkət, söz görmədik. Görəcəyimizi də düşünmürəm".

Ümid edirəm ki, sizə Hikmət paşanı daha yaxşı tanıda bildim. İndi isə elə onun özünə sözüm var.

Cənab general, bir gün oxumağınız ümidi ilə yazıram. Biz general dərdinin, itkisinin nə olduğunu yaxşı bilən millətik. Bir dağımız devrilib, yəqin siz də çox üzüldünüz. Adını çəkəndə nitqim tutulur, ona görə çətinliklə deyirəm, general-mayor Polad Həşimovun şəhadətindən danışıram. Əksəriyyət onu sağlığında tanımadı.

*Bu üzdən dərdimiz də ikiqat çoxdur. Nə xoş ki, sizi tanıyırıq, bilirik. Şuşa fatehimiz Hikmət Mirzəyev, sizə sonsuz hörmətimiz və sevgimiz var. Bunu əminliklə qeyd edirəm. Siz də şəhid atasısınız, axı döyüşdə itirdiyiniz hər əsgərinizi övladınız kimi sevirdiniz. Ona görə həm də Tanrıdan sizə səbr diləyirəm. Sizdən bir müsahibə ümidilə...Var olun, PAŞAM !*

**Samirə Ərəbova**

# Qubadlının qəhrəmanı...

## Yüksəkliyi azad etdikdən sonra dəstəsindəki hər kəs şəhid oldu



Vətən müharibəsində şəhadətə ucalan igidlərimizin hərəsinin öz qəhrəmanlıq dastanı var. Kimisi uzun illər hərbidə fəaliyyət göstərib, kimisi isə Vətənin çağırışına cavab verib, döyüşə yollanıb. Lakin hər biri canla-başla vuruşub, qan töküblər. İllərdir düşmən tapdağında olan Qarabağın əsarətinə son qoyublar.





Onlar 21-ci əsrin igidlik salnaməsinə adlarını yazıblar. Nəinki 4 ay, illər də keçsə, qəlbimizin ən qutsal köşəsində yaşayacaqlar. İndi isə şəhid qardaşlarımızın birindən danışacam. O, Azərbaycan Silahlı Qüvvələrinin mayoru Taleh Adil oğlu Kərimovdur. 1985-ci ildə Sumqayıt şəhərində dünyaya göz açıb. Corat qəsəbəsində 7 nömrəli tam orta məktəbi bitirdikdən sonra Məhəmməd Füzuli adına Tibb, Humanitar və Texniki Təmayüllü "İstedad" liseyində oxuyub. Ali təhsilini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində "Kəşfiyyatçı" ixtisası üzrə alıb.

2007-2008-ci illərdə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində "Zabit" ixtisası üzrə təlimlərdə olub. "N" saylı hərbi hissədə 2010-cu ilə qədər Motoatıcı Taborun Qərargah rəisinin Kəşfiyyat üzrə müavini və Kəşfiyyat taqım komandiri vəzifəsində çalışıb. Daha sonra kəşfiyyat sahəsində fəaliyyətini davam etdirib.

Taleh Kərimov 2018-ci ildən 2019-cu ilin noyabr ayına qədər "N" saylı hərbi hissənin Kəşfiyyat rəisi və Kəşfiyyat bölməsinin rəisi vəzifəsini icra edib. O, 2019-cu ilin noyabr ayından Azərbaycan Silahlı Qüvvələrinin Kəşfiyyat Baş İdarəsinin Qoşun Kəşfiyyatı İdarəsinin Planlaşdırma və Əlaqələndirmə şöbəsində çalışıb.

Şəhidimiz Vətən müharibəsində Füzulinin, Cəbrayılın və Qubadlının azadlığı uğrunda savaşıb. Oktyabrın 30-da Qubadlı döyüşləri zamanı şəhadətə ucalıb. Sumqayıt şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

**"Şərq"lə həmsöhbət olan şəhidin bacısı Mehriban xanım deyir ki, savaş dönəmində onunla soraqlaşıblar, özünü qorumasını tövsiyə ediblər:** "Qardaşım nazirlik xətti ilə cəbhəyə göndərildi. İş yoldaşları ondan danışdılar. Şəhadət şərbətini yanındakı əsgərləri ilə birgə içib. Qubadlıda yüksəkliklərin birini azad etdikdən sonra dəstəsindəki hər kəs şəhid olub".

*Müsahibim qardaşını savadlı, gülərüz, Vətəninə bağlı bir insan kimi xatırlayır:*

"Həm də məndən kiçik olduğu üçün əlimdə böyümüşdü".

Qeyd edək ki, Taleh Kərimov ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda" və "Qubadlının azad olunmasına" görə medalları ilə təltif edilib. Eyni zamanda T.Kərimov Aprel döyüşlərində də savaşıb.

**Samirə Ərəbova**

---

# "Qərbdə qəzeti həvəslə oxuyanlar var"

## ABŞ mətbuatının tədqiqatçısı yerli medianın vəziyyətini müqayisəli təhlil edib



**Ölkəmizdə qəzetçiliyin mövcud vəziyyəti göz qabağındadır. Etiraf edək ki, 1990-cı illərin qaynar mühiti indi yoxdur. Daha doğrusu, o qaynar mühiti yaratmaq üçün gərəkən imkanlar illər əvvəl ya vələdən, ya da zəlzələdən çərçivəyə salındı.**

Bu mənada qəzetlərin əlçatımlığı və oxunaqlığı qismət zəifldi. Amma məsələ ondan ibarətdir ki, bir sıra Avropa ölkələrində çap mətbuatına inam hələ də ölməyib. İnsanlar qəzetlərdəki ən yeni xəbərləri oxuyaraq səhər yeməyi yeyirlər. Görünür, Qərb və Şərq media sistemləri arasında ciddi fərqlər var. Deməli, nə qədər ki, gec deyil, Avropa mətbuatındakı tendensiyaları öyrənməli və tətbiq etməliyik. Şübhəsiz, ancaq müsbətləri...

***Odur ki, "Şərq" qəzeti olaraq BDU-nun Jurnalistika fakültəsinin Beynəlxalq jurnalistika kafedrasının dosenti Vəfa Zahidqızı ilə birlikdə Azərbaycan və ABŞ KİV sistemlərini təhlil etdik:***

**- Qəzetçiliyi yaşatmaq üçün ABŞ mətbuatından nələri götürməliyik?**

- Ümumiyyətlə, istər jurnalistika nəzəriyyələri, istərsə də medianın trendləri baxımından ilk elementlər, müasir tendensiyalar Qərb ölkələrindən, daha dəqiq desək, ABŞ-dan gəlir. Bu gün araşdırma jurnalistikası sahəsi kimi geniş yayılan makreykerlik, "bulvar mətbuatı", "sarı mətbuat", 24 saat xəbər yayımlı kanallar, data jurnalistikası və digər yeniliklər ilk dəfə məhz ABŞ-da formalaşıb. Hazırda bütün dünyada ənənəvi kütləvi informasiya vasitələri sıradan çıxsa da, "The New York Times", "The Washington Post", "USA Today", "The Wall Street Journal" kimi transmilli qəzetlər hələ də populyarlığını itirmir. Onların onlayn versiyaları yayımlansa da, mətbu nəşrlərini Qərb ölkələrində qəzeti həvəslə oxuyanlar var. Media texnologiya ilə sıx bağlıdır. Heç kim medianın gələcəyini əvvəlcədən görə bilməz. Çünki hansı yüksək texnologiyanın meydana gələcəyindən xəbər vermək mümkün deyil. Amma nə qədər inkişaf getsə də, ənənəvi oxu mədəniyyəti, klassik bilgi mənbəyinə maraq hələ də qalıb. Düşünürəm ki, mətbu nəşrlərə bizdə meyli artırmaq üçün formatda bir qədər dəyişiklik etmək olar. Məsələn, qəzetlərin standart həcmində dəyişiklik etmək, materialında fərqlilik yaratmaq, tam və ya yarı rəngli çapa keçmək, data vizuallaşmalar təqdim etmək olar. Eyni zamanda yazıların məzmununa da fərqli yanaşmaq olar - qısa, lakonik və rəngarəng məqalələr, yaxud onlayn versiyada təqdim olunan maraqlı araşdırma yazılara keçmək olar. Həftədə bir gün qəzetləri reklam üçün pulsuz paylamaq mümkündür. Bundan başqa, müxtəlif müsabiqələr keçirmək məqsədəuyğundur. Menecerlər vasitəsilə sosial mediada qəzetin materiallarını təbliğ etmək tendensiyası da var. Hər şey dəyişir və inkişaf edir. Mən bu gün oxucu kimi qəzeti əlimə alıb dəyişiklik görmürəmsə, gələn dəfə qəzet almağa həvəsli olmayacam.

### "Nə qədər texnologiya inkişaf etsə də, ənənəvi oxu mədəniyyəti, klassik bilgi mənbəyinə maraq hələ də qalıb"

**- Qərb hər vəchlə mətbuatda təbliğata "yox" deyir. Bəs özü buna nə qədər əməl edir?**

- "Təbliğat" sözü bəlli səbəblərdən mənfi çalarlarla yüklənib. Amma onun pozitiv tərəfləri də var. Maarifləndirmə, vətənpərvərlik hisslərinin təbliği nöqteyi-nəzərindən medianın rolu çox böyükdür. Biz bunu 44 günlük Qarabağ savaşında da aydın gördük. Biz bunu koronavirus pandemiyası dönəmində də aydın müşahidə etməkdəyik. Media çox güclü silahdır. Fərqi yoxdur, Qərb və ya Şərq ölkələrində, təəssüf ki, media bəzən hər yerdə alətə çevrilir, bütün dünyada auditoriya hazırda hamını narahat edən virus və onun mutasiyası ilə bağlı məlumatları məhz mediadan alır. Əgər bu, bioloji silahdırsa, onu idarə edənlər də medianı bir alət kimi istifadə edirlər. Həmçinin ABŞ-da 2020-ci il seçki kampaniyası zamanı sosial medianın xüsusi rolunu da gördük.

**- Qəzetin dizaynı, maketləşməsi ilə bağlı iki ölkə mətbuatında hansı fərqlər var?**

- Təbii ki, ABŞ-la Azərbaycan mətbuatını müqayisə etmək düzgün olmazdı. Çünki onların keçdiyi tarixi inkişaf yolu və maddi-texniki baza çox fərqlidir. Qəzetlərin həcm, dizayn, hətta şrift fərqləri çox böyükdür. Amerikada nəşr olunan bir qəzet 15-20 səhifədən ibarət ola bilər. Ümumiyyətlə, aramızda olan ən ciddi fərq bizdə ixtisaslaşmanın olmaması, bizim jurnalistlərin trendlərə çox gec adaptasiya olmaları və onların araşdırmaya meyl göstərməmələridir. Məsələn, bu yaxınlarda iki oğlunu cəbhədə itirən bir ananın hekayəsi paylaşıldı. Hətta bir çox ciddi media vasitələri də faktı dəqiqləşdirmədən sözügedən müsahibəni yayımladı. İstərdim ki, bizdə araşdırma jurnalistikası inkişaf etsin. Bir mövzu ilə bağlı uzun və silsilə materiallar verilsin.

**- "Jurnalist əvvəlcə vətəndaş, ya professional olmalıdır?" dilemmasına ABŞ-da və Azərbaycanda münasibət necədir?**

- Onoro de Balzak deyirdi ki, ingilis və fransız jurnalistləri arasında böyük fərq vardır. İngilis əvvəlcə ingilis, yalnız bundan sonra jurnalistdir. Fransız isə əvvəlcə jurnalist, yalnız bundan sonra fransızdır. Fikrimcə, ABŞ media məkanında peşəkarlıq üstün görünsə də, vətən və vətəndaşlıq ideyaları bizdəki qədər güclü ola bilməz. Düzdür, orada digər Qərb ölkələrindən fərqli olaraq, ailə dəyərləri, mənəvi bağlar daha çox qorunur. Ancaq bizə görə vətəndaşlıq mövqeyi daha üstündür. Bizim jurnalistlər üçün Vətən mövzusu çox həssasdır və hər şeydən üstündür. Biz Dağlıq Qarabağ həqiqətlərinin yayılmasında bunun hər zaman şahidi oluruq.

**Kənan Novruzov**

# “İnanıram ki, Yusif Vəzirin Şuşadakı evi muzey kimi bərpa olunacaq”

## Leyla Vəzirova: “Babamın evi Şuşanın “Hamamqabağı” məhəllləsindəydi”



**Şuşa haqqında danışmağa mənəvi haqqı çatan bir xanımla həmsöhbət olduq; Yusif Vəzir Çəmənzəminlinin nəvəsi Leyla xanım Vəzirova ilə. Leyla xanımla əyani tanışlığımız baş redaktorumuz Akif Aşırlının redaksiyada yaratdığı ”Mətbuat Tarixi Muzeyi”nin açılışı mərasimində olmuşdu.**

**Məlumdur ki, Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının əksəriyyəti görkəmli dövlət xadimləri olmaqla yanaşı, həm də Azərbaycan ədəbi irsinin və Azərbaycan mətbuat tarixinin beşiyi başında dayananlardır. O cümlədən də Yusif Vəzir Çəmənzəminli.**

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Şuşanı Azərbaycan mədəniyyətinin paytaxtı elan etməsi və Şuşanın tarixi görkəminin bərpa ediləcəyini söyləməsi şəhərin əzəli simasının qaytarılacağından xəbər verir. Hamı inanır ki, mənfur düşmən Şuşamızı tanınmaz hala salsa belə, Azərbaycan xalqı Şuşanı yenə əvvəlki gözəlliyinə qovuşduracaq. Şuşa təbiəti etibarilə zatən füsunkardı. Qalır, vaxtilə mövcud olmuş tarixi abidələri, qədimliyi bərpa etmək. Şuşa dahilər şəhəridir. O dahilərdən biri də Yusif Vəzir Çəmənzəminlidir. Və biz də Çəmənzəminli nəslinin zərif davamçısı, Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru Leyla xanım Orxan qızı Vəzirova ilə ”Şuşanı necə görmək istəyir”, mövzusu ətrafında danışdıq.

**- Leyla xanım, Şuşada babanızın evi var idimi? Niyə bunu soruşuram, çünki sizə telefon açmazdan əvvəl, Şuşada Yusif Vəzir Çəmənzəminlinin evi, ev-muzeyi, bu adlar altında axtarışlar etdim, heç bir foto tapılmadı**

- Əlbəttə, var idi. Mən internetdə axtarış vermişdim, tapmışdım. İllər öncə çəkilmiş fotosu var evin. Sizə göndərərəm Hətta inventar nömrəsi də var. Amma ermənilər tərəfindən dağıdılıb, yerlə-yeksan edilib. Lakin yerləşdiyi ərazi bilinir. Babamın evi Şuşanın ”Hamamqabağı” məhəlləsindəydi. Yuxarı Gövhər Ağa məscidinin yaxınlığında. Ora Şuşanın mərkəzi hesab edilir. Evin yerləşdiyi küçə Nəcəf bəy Vəzirovun adını daşıyırdı. Bir halda ki, evin şəkli var, şəklə uyğun da bərpa edilə bilər.

**- Siz görmüşdünüz o evi? Həm bu sualı da verim - ümumiyyətlə, Şuşada olmuşdunuz? Yəni işğaldan əvvəlki Şuşada?**

- Əlbəttə!.. Atam hər yay bizi Şuşaya aparırdı. 3 yaşım olanda çəkilmiş fotolar var. Sonuncu dəfə, deyəsən, 1977-ci ildə olmuşduq Şuşada. O zaman 10 yaşım vardı. Bəlkə də, mənə elə gəlir ki, sonuncu səfərimiz bu olub. Daha çox yadımda qalan həmin ildəki Şuşa səfərimizdi. Bəlkə də o zaman artıq şox şeyləri yaddaşımda saxlayacaq yaşda olmuşam, ona görə

**- 10 yaşlı qızın yaddaşındakı Şuşa necədi?**

- Çox gözəl Havası sərin, insanları da gözəl, yaraşıqlı, mehriban Şir heykəlləri vardı, Peterburqda olduğu kimi. O şir heykəlləri ilə də şəkillərimiz var. Necə deyim: Qarabağın gözü Şuşadı. Şuşa nazlı gəlindi. Neçə-neçə müharibələr gedib Şuşa üstündə. Şuşaya sahib olmağa çalışıblar.

**- Babanızın evi necə qalıb yaddaşınızda? Fotodan əlavə**

- Qəşəng həyəti vardı. Güllü-çiçəkli. Kürsülü ev idi. Yusif Vəzirin bioqrafiyasında qeyd edilən ailə ki var, Güney Azərbaycanın Çəmənzəmin kəndindən köçüb gəlmiş ailə

**- Hansı ki, Yusif Vəzir gənc yaşlarında xəstələnibmiş, bu ailə ona kömək edib və o da əhd edib ki, böyüyəndə özünə Çəmənzəminli təxəllüsü götürəcək**

- Bəli. Bilirsiz ki, Yusif Vəzirin atası Məşədi Mirbaba Mirabdulla oğlu Vəzirov Şuşa bəylərindən olub. Onun bəyliyi 1873-cü il aprel ayının 13-də Şuşa qəza idarəsi tərəfindən təsdiq edilmiş və ona bu haqda şəhadətnamə verilmişdi. Yusif Vəzirin daşıdığı Vəzirov soyadı XVIII əsr Qarabağ hökmdarı İbrahimxəlil xanın nüfuzlu vəzirlərindən biri olan Mirzə Əliməmmədağanın tutduğu vəzir vəzifəsinə bağlıdır və bu soyad nəsildən-nəslə keçib. Babamın atası Çəmənzəmin kəndindən Qarabağa pənah gətirmiş o ailəyə öz evində sığınacaq vermişdi, ailəyə dəstək olmuşdu. Evin alt mərtəbəsində həmin ailə yaşayırmış, üst mərtəbədə isə babamgil. Ev o şəkildə də qalırdı. Atam danışırdı bu haqda. Evin qarşısında atamın şəkli də var. 1967-ci ildə Yusif Vəzirin 70 illik yubileyi keçirilib. Azərbaycanın bir çox yazıçıları, ziyalıları Şuşaya səfər edib, Yusif Vəzirin vaxtilə yaşadığı evi ziyarət ediblər, atamın və əmimin onlarla birlikdə evin eyvanında çəkilmiş fotosu var.

**- Amma ev-muzeyi olmayıb ora?**

- Xeyr. Evin qarşısında memorial lövhə vardı, sadəcə. Yazılmışdı ki, bu evdə Azərbaycanın görkəmli yazıçısı Yusif Vəzir Çəmənzəminli yaşayıb.

**- Görəsən, niyə ev-muzeyi kimi fəaliyyət göstərməyib?**

- Nə deyim?!.. Sovet illərində Gövhər Ağa məscidi məscid kimi fəaliyyət göstərməyib. Orda etnoqrafik muzey təşkil olunmuşdu. Həmin muzeydə babama aid stend də vardı. Yadımda o qədər də qalmayıb, deyəsən, babamın evində yaşlı bir qadın yaşayırdı. Bəlkə də ev-muzeyi üçün heç bir əşyası olmayıb, ona görə

**- Leyla xanım, məlum məsələdi, Yusif Vəzir repressiya qurbanı idi. Nə əşyası qalacaqdı ki?! Paytaxtda da Yusif Vəzirin vaxtilə yaşadığı ev qalır. Bünyad Sərdarov küçəsində. Amma o evdə də muzey fəaliyyət göstərmir.**

- Elədir. Hündürmərtəbəli binalar tikilib. Babamın yaşadığı ev o binaların əhatəsində qalıb. Bəlkə də sökəcəklər evi

**- Ev-muzeyi olmalıdır, mütləq. Əşya yoxdursa, xatirə-muzeyi olsun Amma olmalıdır!**

> “Mənim üçün Şuşanın dadı, tamı o ağ tutla qalıb yadımda. Sonra, Şır-şır bulaq, Səkili bulaq, İsa bulağı”

- Mən çox istəyərdim ki, Şuşada babamın evi bərpa olunsun. Cənab Prezidentin çıxışlarını dinləyirəm və məndə əminlik yaranıb ki, Yusif Vəzirin də evi bərpa olunacaq. Bir halda ki, evin fotosu qalır, inventar nömrəsi var, yəqin mümkün olar bunu etmək.

**- Leyla xanım, Mədəniyyət Nazirliyi Şuşadakı tarixi abidələrin, dağıdılan abidələr, bərpası mümkün olanların siyahısını tərtib edib. Şübhəsiz, o siyahıda Yusif Vəzirin evi də olmalıdır.**

- Babam Şuşanı elə dəqiqliyi ilə təsvir edir ki, əsərlərində. Yusif Vəzir ”Həyatımın 20 ili” əsərində Şuşanı belə təsvir edir: ”Dağ başında yazı-yayı yaşıllığa, payızıqışı dumana və qara bürünmüş bir şəhər təsəvvür ediniz. Bu, mənim şəhərimdir” Ümumiyyətlə, Yusif Vəzirin əsərlərində Qarabağın tarixi, təbiəti, etnoqrafiyası dəqiqliklə təsvir olunub. Bədii əsərlərdir, amma eyni zamanda Azərbaycanın - Qarabağın tarixidir. Bunu damarlarından Qarabağ - Şuşa qanı axan bir adam edə bilərdi. Yusif Vəzir Çəmənzəminli də bunu etmişdi.

**- Dediniz, atanız hər yay sizi Şuşaya aparardı. Şuşa ilə bağlı başqa hansı xatirələriniz var?**

- Biz Şuşada sanatoriyada qalırdıq. Atam hər səhər Şuşa bazarına gedib qaymaq və tut alardı. Ağ tut. O tutun dadını heç unutmadım Ümumiyyətlə, Şuşanın dadı da başqadı. Hər yerdən fərqlidi. Mənim üçün Şuşanın dadı, tamı o ağ tutla qalıb yadımda. Sonra, Şır-şır bulaq, Səkili bulaq, İsa bulağı Şuşada Mineral sular pavilyonu vardı

**- Bəs, Şuşanın adı çəkiləndə yadınıza ilk nə düşür?**

- Cıdır düzü!.. Orda kəklikotu yığmağım Otların arasında seçərdim kəklikotunu. Min-bir rəngdə çöl gülləri toplayardım. Otağımıza bir qucaq çöl gülü ilə qayıdardım.

**- Necə təsəvvür edirsiniz bərpa olunacaq Şuşanı?**

- Şuşanın qədimliyi mütləq saxlanmalıdır. Şuşanın gələcək siması tarixə uyğun olmalıdır. Hündür binalar deyil, cənab Prezident dediyi kimi 4-5 mərtəbəli binalar olmalıdır. Əminəm ki, cənab Prezidentin rəhbərliyi altında Şuşa da Bakımız kimi gözəl olacaq. Şuşa Prezident tərəfindən mədəniyyət mərkəzi elan edilib. Bu səbəbdən də, orada anadan olub, Azərbaycanı dünyaya tanıdan hər bir şəxsin evi bərpa olunaraq muzey kimi fəaliyyət göstərə bilər. Həmçinin məşhur malikanələr, məşhur məhəllələr də bərpa edilməlidir. Bəzən internetdə fotolar yerləşdirirlər, hündürmərtəbəli binalar, hansısa müasir tikililər. Mən yaraşdırmıram onları Şuşaya. Şuşanın öz memarlıq üslübu, öz inşaat üslübu var. Çay daşı döşənmiş küçələrdir Şuşa!.. Şuşanın kaloriti qorunmalıdır.

**- Yəqin siz də Şuşaya getmək üçün səbirsizlənirsiniz**

- Çox istəyirəm gedim. ”Xarı bülbül” festivalının keçirildiyini görmək istəyirəm. Gözləyirik, icazə verilsin, gedək. Hələ ki təhlükəsiz deyil belə səfərlər.

**- Leyla xanım, Şuşanın azad edilməsi xəbərini necə qarşıladınız, soruşmağa ehtiyac varmı?**

- Sözlə ifadə etmək çətindi. Ağladım. Göz yaşlarımı saxlaya bilmədim. Vətən müharibəsi başlanan gündən çox adam eyvanlardan, pəncərələrdən Azərbaycan bayrağı asırdı. Amma mən əhd eləmişdim ki, ancaq Şuşa alınanda bayraq asacam. Bayrağımızı alıb saxlayırdım. Şuşa xəbərini gözləyirdm. Noyabrın 8-i cənab Prezident Şuşanın azad olunması xəbərini elan edəndə bayrağımızı pəncərədən asdım. Elə həmin gün də atamın, əmimin məzarı üstə getdik. Şuşanın azadlığı xəbərini onlara ”çatdırdıq”, gözaydınlığı verdik. Bilirsiz ki, Şuşanın azadlığını bütün ölkə zəfər günü kimi bayram etdi. Təbii ki, Vətən torpağının hər qarışı müqəddəsdir. Torpaqlarımız azad olunduqca sevinirdik, Azərbaycan əsgəri ilə qürur duyurduq. Amma ən çox Şuşanın azad olunması xəbərini gözləyirdik. Yəqin bizi qınamazlar. Şuşa necə olsa da, bizə bir köynək yaxındı

**Məlahət Rzayeva**



(Leyla Vəzirova: Gövhər ağa məscidinin qarşısında. Mən və qardaşım)



(Çəmənzəminlinin evinin qarşısı)



(Çəmənzəminlinin 70 illiyi Şuşada bir qrup ziyalılarla həmin həyətdəBu iki nəfər oğullardır)





# “Bu Vətən üçün könüllü ölümə getdik”

## Hafiz Əhmədov: “Ermənilərin əsas hədəfi Mingəçeviri vurmaq və döyüşün taleyini öz xeyirlərinə həll etmək idi”

İkinci Qarabağ müharibəsi dövründə minlərlə gənc sinəsini qabağa verdi. Onlar "Vətən məni yetişdirib bu ellərə göndərdi¸" deyərək Vətənə xidmət etməyə tələsdilər. Çünki torpağın dəstəyə ehtiyacı var idi. Şükürlər olsun ki, qələbəyə sevinib torpaqlarımızı işğaldan azad edə bildik. Bu sevinci bizə yaşadan isə həm də könüllülər idi. Həmin könüllü əsgərlərdən biri, jurnalist, "Hafiz-Times.com" saytının rəhbəri Hafiz Əhmədov 1990-ci il mayın 4-də Tovuz rayonunda anadan olub. 2007-2011-ci illərdə BDU-nun Jurnalistika fakültəsində təhsil alıb. 2011-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələrində hərbi xidmətdə olub. Ardınca bir neçə mətbu orqanla əməkdaşlıq edib və sonra öz saytını yaradıb. İndi isə o, həm də müharibə iştirakçısıdır.

Həmkarımız Vətən savaşındakı iştirakına dair "Şərq"in suallarını cavablandırıb:

**- Necə oldu ki, İkinci Qarabağ müharibəsinin iştirakçısına çevrildiniz?**

- Ötən ilin iyul ayında Ermənistan Silahlı Qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində əlverişli mövqeləri ələ keçirmək üçün hücuma keçmişdilər. Qızğın döyüşlər gedirdi. Azərbaycan Ordusu ermənilərin təxribat xarakterli bu hücumunun da qarşısını uğurla aldı, düşmən öz mənfur niyyətlərinə çata bilmədi. Təəssüf ki, şəhidlərimiz də oldu. Qəhrəman generalımız Polad Həşimov şəhadətə qovuşduqdan sonra bütün bölgələrdə, o cümlədən paytaxt Bakıda ”Qarabağa azadlıq” şüarları səslənməyə başladı. Həmin gecə Ali Baş Komandan İlham Əliyev televiziyada çıxış edib dedi: ”Qarabağı almaq istəyənlər gedib könüllü orduya yazılsınlar. Təəssüf ki, çox az adam könüllü olaraq orduya yazılıb”. Səhər tezdən kənddən birbaşa Tovuz Rayon Hərbi Komissarlığına getdim. Hələ heç komissarlığın qapısı açılmamışdı. İşçilər gələn kimi sənədlərimi onlara təqdim etdim və adımı könüllü əsgərlərin siyahısı dəftərinə qeyd etdirdim. İki ay sonra - sentyabrın 21-də zəng edib, çağırdılar. Saytın admin panelindəki hazır eksklüziv müsahibəmi də silmədən evdən çıxdım. Əslində həmin gün müsahibəm yayımlanmalı idi. Heç doğmalarımla da görüşmədən Vətənin harayına getdim. Dedilər ki, Vətən dar gündədir, sizi çağırır. Sentyabrın 21-də gecə avtobuslara doluşub yola çıxdıq. Bizi hara aparacaqlarını dəqiq bilmirdik. Yolda səfərbərlik hərbi təlimlərinə getdiyimiz bildirildi. Beləliklə, müharibə başlamazdan bir həftə öncədən bizim hərbi həyatımız başladı. Mən olduğum hərbi hissədə 250-yə yaxın könüllü əsgər vardı. Cəmi bir həftə sonra isə 2-ci Qarabağ müharibəsi başladı.

**- Əsas vəzifəniz nədən ibarət idi?**

- Biz Azərbaycanın hava məkanını düşmən hücumundan müdafiə edirdik. Yəni Hərbi Hava Qüvvələrinin Hava Hücumundan Müdafiə Qoşunlarının sıralarına qoşulmuşduq və verilən tapşırıqları yerinə yetirirdik. HHM Qoşunlarının ”Buk-MB” zenit-raket komplekslərinin döyüşlərində iştirak etdim. Düşmənin yüksək sürətli, müxtəlif ölçülü hava hədəflərini aşkarlayaraq izlənməyə götürür, dəqiq raket atışları ilə məhv edirdik. Komandirlərimizin peşəkarlığı nəticəsində cəmi bir neçə saniyə ərzində düşmənin milyonlarla dollar dəyərində olan hərbi texnikaları, bütün növ təyyarələri, helikopterləri, habelə ballistik raket və PUA-ları darmadağın olurdu. Düşünürdüm ki, nizami ordu buna deyilirmiş, hər kəs öz vəzifəsini icra edirdi. 10 il öncə hərbi xidmətdə olarkən icra etdiyim hərbi vəzifəyə bu gün, müharibə zamanı yenidən təyin olunmuşdum, məni HHQ-nə təsadüfən gətirməmişdilər. Komandirlərimizin vaxtında, dəqiq icra etdikləri döyüş əmrləri, təkcə bir barmaqları ilə basdıqları ”Pusk” düymələri nəticəsində hələ müharibənin ilk həftələrində Ermənistan Hərbi Hava Qüvvələrinin bir neçə bahalı Su-25 döyüş təyyarələri Cəbrayıl və Qubadlı rayonları istiqamətində vuruldu. Bütün bunlara şahid olmaq, şanlı döyüş əməliyyatlarında iştirak etmək məni və bütün əsgər yoldaşlarımı qürurlandırırdı. Yüksək rütbəli komandirlərimiz bizimlə görüşə gələndə deyirdilər ki, sizin xidmət etdiyiniz qoşun növünün döyüşü cəmi 46 saniyə çəkir. Bu saniyələr ərzində siz bütöv bir ordunun işini görüb düşmənə ən ağır itkini yaşadarsınız və bütün müharibənin taleyini həll edərsiniz. Hava Hücumundan Müdafiə Qoşunlarının silahlanmasına daxil olan müasir və etibarlı ”Buk-MB” zenit-raket divizionunun kompleksləri vasitəsi ilə düşmən hədəfləri aşkar edilirdi, avtomatik izlənməyə götürülürdü və dəqiq, düzgün qərar qəbul edilərək atəş açılırdı, məhv edilirdi. Ölkəmizin hava məkanının 24 saat fasiləsiz mühafizəsini təmin edirdik, düşmənin istənilən təcavüzü dərhal dəf olunurdu.





**- Qarşı tərəfin hücumlarının qarşısı necə alınırdı?**

- Yadınızdadırsa, Ermənistanın hərbi rəhbərliyi döyüşlər başlayarsa, Mingəçevir su anbarına raket zərbələrinin endiriləcəyini deyirdi. Bu təhdidlər də HHM Qoşunlarımızın üzərinə daha böyük məsuliyyətlər qoyurdu. Mingəçevirin vurulması nəticəsində ölkədə ən böyük faciə yaşanardı. 8 rayonumuz su altında qalardı. Minlərlə insanımız bir anda həyatını itirərdi, ölkəmizdə ağır böhran yaşanardı. Müharibənin ən həlledici anlarında ölkə elektrik enerjisinə möhtac qalardı. Bilirsiniz bu nə deməkdir?! Bu, ən dərin məğlubiyyət və ”son” demək idi. Xidmət etdiyim qoşun növü, yəni HHV, Hava Hücumundan Müdafiə Qoşunları da müharibənin ilk anlarında ölkəmizdən ən strateji, dövlət əhəmiyyətli obyektlərinin müdafiəsini təşkil etmişdi. Heç bir qanuna, normalara əməl etməyən ermənilərin əsas hədəfi Mingəçeviri vurmaq və döyüşün taleyini öz xeyirlərinə həll etmək idi. Onların bütün cəhdləri uğursuzluqla nəticələndi. Belə ki, Azərbaycanın ən strateji obyektinə atdıqları raketləri havadaca zərərsizləşdirdik. Düşmənin Qarabağdan deyil, birbaşa Ermənistan ərazisindən göndərdiyi raketlər ən bahalı S-300 zenit raket kompleksimizdən açılan dəqiq atəşlə məhv edildi. Buna canlı şahid olmaq qürurverici idi.

**- Gəncə təxribatları ilə bağlı nə deyə bilərsiniz?**

- Hər kəs yaxşı bilir ki, düşmən yalnız cəbhə xəttində döyüşmürdü. Ermənilərin əsas hədəfləri həm də dinc sakinlər idi. Gəncə şəhərinə endirilən raket zərbələri buna sübutdur. Xeyli sayda mülki sakinimiz həyatını itirdi, xəsarət aldı. İnsanlar qorxu, təlaş, vahimə yaşadılar. Həmin hadisədən bir neçə saat sonra mənim də xidmət etdiyim bölməni ora göndərdilər. Düşmən yenə də öz mənfur niyyətindən əl çəkmədi. Gəncəyə daha bir hava zərbəsi endirməyə gələn düşmən hədəfini komandirlərimiz gecə saatlarında havada məhv etdilər. Nəticədə Gəncədə daha bir böyük faciənin baş verməsinin qarşısı uğurla alındı. Bunun üçün komandirlərimizə minnətdar olmalıyıq. Əlbəttə, baş verənlər mənim üçün də böyük qürur idi. Çünki həmin zenit raket texnikasının döyüş heyətinə mən də daxil idim. Döyüş heyətimiz orda olduğu zaman düşmən bir daha Gəncəni hədəf seçmədi. Ardınca xidmət etdiyimiz bölmə Qubadlı, Zəngilan, Cəbrayılda uğurlu əməliyyatlar keçirdi. Düşmənin bütün hədəflərini havada məhv etdik. Səmamız aydın və təmiz olduqdan sonra qələbə də bizim oldu.

**- Qələbə sevinci nələrə başa gəldi?**

- Həyatımda heç vaxt görmədiyim, heç vaxt getmədiyim dağ-təpələrdə çadır qurub yaşadıq. İlk baxışda ”toy çadırlarına” oxşasa da, tamamilə fərqli xüsusiyyətlərə malik idilər. Həmin çadırlarda yeni həyata qədəm qoyulmurdu. Əksinə, hər an həyatla vidalaşa bilərdik. Qızğın döyüşlər zamanı çox çətinliklə də olsa bizə ”katyol”larda ordu yeməyi gətirirdilər. O çörək daş kimi möhkəm olmasına, yemək növlərinin 44 gün heç dəyişməməyinə rəğmən, heç birimiz şikayət etmədən yeməyimizi yeyib, vəzifəmizin başına tələsirdik. Fərqi yoxdur, komandir, ya da əsgər - hamımız o ”katyollar”dan yemək yeyirdik. Xalqımız da sağ olsun, öz yemək paylarından bizə də göndərirdi. İlk vaxtlar camaatın göndərdiyi o yemək, sovqatlara yaxın getmirdim. Əsgər yoldaşlarım təkid edirdilər ki, sən də ye. Fikirləşirdim ki, axı mən bunlara dəstək olmaq üçün könüllü gəlmişəm, indi bura göndərilən sovqata necə şərik çıxa bilərəm? Gedib ”katyollar”da gələn ordu yeməyindən yeyirdim. Sonralar hər şeyə öyrəşdim. Bəzən içməli su tapmasaq da, bədənimiz suya, çimməyə həsrət də qalsa, bütün bunlar bizə çətinlik yaratmırdı. Hamımızın bir arzusu vardı: Qələbə! Düşmən texnikalardan çıxan şüalar vasitəsi ilə yerimiz aşkar edilirdi. Bu zaman saniyələr ərzində köçmək, həmin ərazidən yox olmaq əmri verilirdi. Böyük əziyyətlə, zəhmətlə saniyələr ərzində yerdəyişmələr edirdik. Hər dağda, təpədə yenidən həyata başlamalı olurduq. Ərazidən vaxtında çıxmasaydıq, bu gün sizə müsahibə verə bilməzdim. Həm düşmənlə, həm də saniyələrlə yarışırdıq. Ordumuzdakı ruh yüksəkliyi bizi qələbəyə həvəsləndirirdi. Biz könüllü əsgərlər saniyələr ərzində həmin ağır texnikaları, silahları bir yerdən başqa yerə daşımaq üçün elə bir yarış qururduq. Bunu sözlə təsvir edə bilmirəm... Bir dəfə də təcili ”yer dəyişmə” əmri verildi. Tez icra etməsəydik, düşmənin uğurlu hədəfinə çevriləcəkdik. Könüllü əsgər yoldaşlarımla birlikdə həddən artıq ağır yükləri əlimizlə, çiynimizdə bir təpədən digərinə apardıq. Halbuki, heç kim bizə ağır yükləri əlimizdə daşımaqla bağlı əmr verməmişdi. Bu, ordumuzdakı ruh yüksəkliyinin ən gözəl nümunəsidir. Biz bu işləri böyük həvəslə görürdük. Hətta işini görmək istəməyən vəzifəlinin də yerinə çalışırdıq. Bəzən bizə ətrafdan deyən olurdu: ”Ay bədbəxtlər, biz bu gün maaş aldıq. Siz aylardır ki, pul, ev üzü görmürsünüz. Bu bizim işimizdir. Siz nə üçün özünüzü öldürürsünüz?!”. Bunlar nə qədər ağır fikirlər olsa da, bizim üçün önəmli deyildi.

(Davamı səh.10)

*(Əvvəli səh: 9-da)*

# “Bu Vətən üçün könüllü ölümə getdik”

Azərbaycan Ordusunun könüllü əsgərləri idik və öz vəzifəmizi layiqincə yerinə yetirirdik. Hər uğurlu yerdəyişmədən sonra könüllü əsgərlərin kim olduqlarını, gördükləri işin əhəmiyyətini yaxşı başa düşürdülər və dilə gətirirdilər. Döyüşlər yeni başlamışdı. Bizim çox yaxınlığımızda yerləşən digər qoşun növünə məxsus hərbi hissədən canlı itkilər həddən çox idi. Dost, qardaşlarımızın ölüm xəbərlərini alırdıq.



**Hafiz Əhmədov: “Ermənilərin əsas hədəfi Mingəçeviri vurmaq və döyüşün taleyini öz xeyirlərinə həll etmək idi”**

Bizə nəfəs qədər yaxın idilər. Amma fərqli qoşun növləri idik. Ürəyimiz parça-parça olsa da, öz vəzifəmizi layiqincə yerinə yetirməli idik. Günahkarların layiqli cəzasını aldığını eşidəndə ürəyimiz bir az rahatladı...Düşmən amansız idi və ani bir səhv bərpası mümkünsüz nəticələrə səbəb olardı. Buna görə də bütün beynimizi döyüşə, qələbəyə kökləmişdik. Heç kim ölümü düşünmürdü. Hətta ən yaxınlığımıza düşən raket zərbələri də bizim döyüş əhvalımıza təsir etmirdi.

**- Başqa hansı xatirələri oxucularımızla bölüşmək istərdiniz?**

- Bir dəfə gecə ərazidə növbədə idim. Qanlı döyüşlər gedirdi. Hər tərəf zülmət qaranlıq idi. Yalnız raketlərdən çıxan alov, dron, PUA və hava şarları yeri işıqlandırırdı. Birdən komandirimizi ərazidə gördüm. Cəmi bir neçə saat öncə eşitmişdim ki, onun ən yaxın 3 dostu şəhid olub. Əvvəlcə baş sağlığı vermək istədim. Amma uyğun söz tapa bilmədim. Çox asta səslə dedim ki, kaş müharibə bu gün başa çatardı. Elə həmin an komandirim üzünü mənə tərəf çevirdi: ”Müharibə davam etməlidir. Bütün torpaqlarımızı azad etməliyik ki, şəhidlərimizin qanı yerdə qalmasın!”- dedi. Dekabr ayının 28-də yaşımın çox olmasına görə ordudan tərxis edildim. Əgər 3 gün də gec buraxılsaydım indiyədək əziyyətlə, böyük əməklə tapıb araşdırdığım, üzə çıxardığım bütün eksklüziv müsahibələrimi yayımladığım saytım illik ödənişini yubatdığım üçün tamamilə bağlanacaqdı. Beləliklə, bütün jurnalist əməyim yenə də yox olacaqdı. Yəqin, bu dəfə çox sevdiyim jurnalistika ilə də vidalaşacaqdım. Yenə də saniyələrlə savaşmalı oldum... Müharibədən aldığım maaşı da həmin ödənişlərə sərf etdim. Məni ən çox yoran isə müharibədən sonra evə qayıdanda qarşılaşdığım medal söz-söhbətləri oldu. Bəzi insanlar hal-əhval tutmamış ”neçə medalın var” sualını verirdi. Onlara demək istəyirəm ki, mən gedib Tovuz döyüşlərinin ikinci günü könüllü əsgər kimi komissarlıqda qeydiyyata düşəndə o göy üzlü dəftərə medal, maaş, mükafatlar, nə bilim, nələrsə veriləcəyi yazılmamışdı... Mən bu Vətən qarşısında borcumu ödədim. Həmçinin minlərlə medalsız könüllü əsgər yoldaşlarım da bu Vətəni dar gündə tək qoymadılar. Bu Vətən üçün könüllü ölümə getdik.

**- Havadan müdafiə qoşun növündə xidmət etdiyinizə görə soruşuram, müharibədə PUA-ların əhəmiyyəti nədən ibarət oldu?**

- Sentyabrın 26-sı idi. Bizi səfərbərlik təlim mərkəzindən bölüb dağ-təpələrdə qurulmuş çadırlara gətirmişdilər. Səhər saat altı tamam olardı. Birdən çadırın qapısı möhkəm aralandı və bir gənc içəri daxil oldu. Həyəcanlı halda dedi: ”Komandir, siqnal verildi!”. Hələ heç adını da bilmədiyimiz komandirimiz qışqıraraq müharibə başladığını elan etdi. Yəni erməni təxribatlarının qarşısını almaq üçün əks-həmlə əməliyyatlarına start verildi. Müharibənin taleyinin Azərbaycanın xeyrinə həll olunmasında PUA-ların rolu birmənalı olaraq danılmazdır. Döyüş PUA-ları vasitəsi ilə həm düşmənin texnikasına və canlı qüvvəsinə dəqiq zərbələr endirirdik, həm də artilleriya atəşinə uğurlu cavablar verdik. PUA-larla ötürülən dəqiq kəşfiyyat məlumatları nəticəsində düşmən hədəfləri saniyələr ərzində məhv edildi. Bu həm də PUA-ların, dronların savaşı idi. Ən bahalı hərbi texnikaların, qırıcı, helikopterlərin də işini PUA-lar çox uğurla yerinə yetirirdi. Döyüşün ən qızğın vaxtında bəzən sükut çökürdü. Düşünürdük ki, yəqin Ermənistan yenə pozmaq üçün ”atəşkəs” istəyir. Bu zaman dronlar öz işini görürdü. Bəzən səssiz, bəzən də uzun davam edən səslə dronlar təftişə başlayırdı. ”Harop” zərbə pilotsuz uçuş aparatları, ”Zərbə” dronları və digər PUA-lar, xüsusilə də ”Bayraktar TB2” zərbə pilotsuz təyyarələrinin qələbəmizdəki rolu danılmaz həqiqətdir. Təkcə ”Bayraktar TB2” dronları vasitəsilə Azərbaycan Ermənistanın bir milyard dollar dəyərində hərbi texnikasını darmadağın etdi. Pilotsuz An-2 təyyarələrimiz Ermənistanın hava hücumundan müdafiə sistemlərinin yerləşdiyi mövqeləri dəqiq aşkarlayırdı. PUA-lardan müxtəlif məqsədlər üçün istifadə edilirdi. PUA-ların ötürdüyü məlumatlardan bir neçə dəqiqə sonra artilleriyaçılarımız da düşmən mövqelərinə dəqiq zərbələr endirirdilər. Məhz bütün bunların sayəsində hərbi əməliyyatların ilk 2-3 həftəsindən Ermənistanın hava hücumundan müdafiə sistemləri ən ağır zərbələrə məruz qaldı və məğlubiyyətə düçar oldu. Həmçinin Hərbi Hava Qüvvələrimizin silahlanmasında yer alan ”Buk-MB”, S-300 PMU2 ”Favorit” və xaricdə istehsal olunan digər müasir sistemlər düşmənin bütün hava hücumu vasitələrini məhv etdi.

**Kənan Novruzov**



## İlkinin istintaq prosesi daha 4 ay uzadıldı

### Məhkumun yaxınları etiraz edir, şahidləri danışdırmırlar

**Fevralın 1-də Nəsimi Rayon Məhkəməsində 10 yaşlı Nərmin Quliyevanın qətlində təqsirli bilinən İlkin Süleymanovun istintaq prosesi 4 ay uzadılıb.**

Dünən Apelyasiya Məhkəməsində istintaqın uzadılmasına dair İ.Süleymanovun şikayət üzrə məhkəmə prosesi keçirilib. Məhkəmənin qərarına əsasən, şikayət təmin olunmayıb və istintaq yenidən 4 ay müddətinə uzadılıb. **Məhkəmənin qərarı ilə bağlı İ.Süleymanovun qardaşı Adil Süleymanov ”Şərq”ə açıqlama verib. A.Süleymanov qeyd edib ki, qardaşının günahsız olduğuna dair məhkəməyə şahidlər təqdim olunsa da, onları danışdırmırlar:** ”Yalnız 1 nəfəri dindiriblər, o da yarımçıq formada. Yerdə qalan 2 şahidi danışdırmırlar. Baş verənlərin ədalətli araşdırılmasını istəyirik. Qardaşımın heç bir günahı yoxdur”.
İ.Süleymanovun əmisi oğlu Tariyel Süleymanov da məhkəmənin qərarından narazıdır: ”İstintaqın 4 ay uzadılması bir daha sübut edir ki, hələ də ağıllanmayan məmurlar var. Yetərli dəlil və sübutlar yoxdur, amma İlkini günahsız yerə həbs ediblər”.

**Yeganə Bayramova**

# Kreml Zaxarovanı qabağa verib

Rusiya Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova müxalif Aleksey Navalnı tərəfdarlarının Rusiyaya qarşı sanksiya tətbiqinə çağırışlarını xəyanət adlandırıb.

M.Zaxarova Aleksey Navalnı tərəfdarlarının Avropa İttifaqı və ABŞ rəsmiləri ilə Rusiyaya qarşı sanksiya tətbiqinin mümkünlüyünü müzakirə etmələrini xəyanət kimi xarakterizə edib: “Bu, bayağıdır və ədəbsizlikdir. Bu hər zaman belə olub. O ki qaldı mənəvi-etik qiymətləndirməyə, bu xəyanətdir” - deyə M. Zaxarova Vesti FM-in efirində bildirib.

**Yaranmış vəziyyəti ”Şərq”ə şərh edən politoloq Məhəmməd Əsədullazadə bildirib ki, rəsmi Moskva Navalnı məsələsinə görə sanksiyalardan çəkindiyi üçün bu dəfə də XİN sözcüsü Zaxarovanı irəli verib:** ”Rusiyada baş verən etiraz dalğaları Putin hakimiyyətini narahat edir. Bu kontekstdə Rusiyaya qarşı sanksiya tətbiq ediləcəyi gözlənilir. ABŞ Prezidenti Baydenin də Navalnı məsələsini gündəmə gətirməsi təbii ki, Kremldə ciddi rezonans doğurur.

Bu istiqamətdə görünür ki, onlar XİN-in sözcüsü Mariya Zaxarovanı qabağa veriblər. Zaxarovanın Navalnını xəyanətdə ittiham etməsi Moskvanın siyasəti öz bildiyi kimi formalaşdırmasının nəticəsidir. Putin də KKB sistemindən çıxan bir generaldır. Onların məktəbində də Rusiyadan olan şəxslərin qərblə əməkdaşlığı vətənə xəyanət kimi qiymətləndirilir. Yaxın tarixə nəzər salsaq bir çox qərbmeyilli müxalifətçilərin vətənə xəyanət adı ilə aradan götürüldüyünü görmüş olarıq. Bu, Kremldə oturuşmuş bir sistemdir. Belə görünür ki, Zaxarovanın da fikirləri eyni kontekstdədir”.




Navalnı ətrafında baş verən müzakirələr Qərblə Rusiya arasında soyuq müharibəyə çevriləcək

**Politoloq qeyd etdi ki, Navalnı haqqında gedən müzakirələr Rusiya ilə qərbi soyuq müharibəyə belə gətirib çıxara bilər:**

”Təbii ki, bu istiqamətdə Rusiyaya qarşı sanksiyalar tətbiq ediləcək. Eləcə də Navalnı ətrafında gedən müzakirələr Qərblə Rusiya arasında çox ciddi soyuq müharibəyə səbəb olacaq. Ya Putinin başağrısı Navalnı həbsdən azad olunacaq, ya da o, həbsdə qalmaqla Putin qərbi bazarlığa gətirəcək. Düşünürəm ki, Navalnının həbsdə saxlanılması Moskvaya baha başa gələcək. Buna baxmayaraq Rusiyada etirazların yeni dalğası formalaşacaq. Zaxarovanın nə deməsindən asılı olmayaraq artıq RF-da müxalif etirazçı kütləsi formalaşıb. Moskva hər halda bu dalğanın qarşısını ala bilməyəcək. İrəlidə Dumaya seçkilər başlayacaq. Bu seçkilərdə siyasi atmosferin daha da qızışacağı, problemlərin artacağı, həmçinin, Rusiyanın şərqindən qərbinə qədər kütləvi etirazların keçiriləcəyi gözlənilir. Ona görə də hakimiyyət çalışır ki, vəziyyəti indidən öz nəzarətinə alsın, Navalnını cinatəykar və xəyanətkar elan etməklə onu xalqın gözündən daha da salsın”.

**Ağarza Elçinoğlu**

# İctimai və dövlət maraqlarının müdafiəsi



**Suyun qiymətinin qalxması təsadüfi deyil. Dünyada su qıtlığı yaşanır. Mütəxəssislər hələ illər öncə həyəcan təbili çalırdı ki, su ehtiyatlarından səmərəli istifadə edilməlidir. Söhbət təkcə əhaliyə satılan içməli sudan getmir. Problem işməli sudan bir çox hallarda səmərəsiz, təsərrüfat məqsədilə və sui-istifadə edilməsidir.**

# Hər sərvətin qədrini bilməliyik

## Dünyada müşahidə edilən su ehtiyatlarının azalması tendensiyası gözardı edilməməlidir

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Suyun küçələr boyu boş-boşuna axıb getməsinin o qədər şahidi oluruq ki. Təkcə avtomobilyuma məntəqələri gün ərzində nə qədər içməli suyu israf edir. Halbuki, təsərrüfat məqsədilə texniki sulardan istifadə edilməlidir. Amma müəssisələrin, obyektlərin şəxsi qazanc məqsədilə içməli sudan istifadəsi nəticə etibarilə su ehtiyatlarının azalmasına və əhalinin əziyyət çəkməsinə səbəb olur.

Xatırladaq ki, Azəbaycan Respublikasının Prezidenti İlham Əliyev Vətən müharibəsindən öncə, 27 iyul 2020-ci il tarixdə məhz su ehtiyatlarının vəziyyəti ilə bağlı videoformatda müşavirə keçirmişdi. Prezident onlayn müşavirədə su təsərrüfatına cavabdeh olanları sərt tənqid etmişdi. Prezident vətəndaşlardan məktublar aldığını demişdi və cavabdeh şəxslərə vətəndaşları narahat edən problemlərin qısa zamanda həll edilməsini tapşırmışdı. Müşavirənin nəticəsi olaraq Prezident İlham Əliyev tərəfindən imzalanmış 27 iyul 2020-ci il tarixli Sərəncamla ”Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı” təsdiq edildi. Vətən müharibəsində qazandığımız qələbə isə ölkəmizin 30 ilə yaxın bir müddətdə işğal altında saxlanılan su ehtiyatlarına da çıxışını təmin etdi. 10 noyabr bəyannaməsinə uyğun olaraq erməni silahlılarının Laçın rayonunu tərk etməsini xalqa elan edən cənab Ali Baş Komandan çıxışında su ehtiyatları məsələsinə də toxundu: ”Onu da bildirməliyəm ki, bizim böyük çayımız - uzunluğu 100 kilometrdən çox olan Həkəri çayının mənbəyi Laçın rayonundadır. Bu da böyük strateji əhəmiyyətə malik olan məsələdir. Deyə bilərəm ki, bizim 10-dan çox böyük və kiçik çayımızın mənbəyi işğaldan azad edilmiş torpaqlardadır. Onların arasında 4 çayı xüsusilə qeyd etmək istərdim. Çünki bu çayların uzunluğu 100 kilometrdən çoxdur. Tərtərçay 200 kilometr, Bazarçay 180 kilometrə yaxın, Xaçınçay 120 kilometrə yaxın - bu 3 çay Kəlbəcər rayonunda yerləşir. Həkəri çayı da böyük çaylarımızdan biridir, uzunluğu 100 kilometrdən çoxdur. Bunun çox böyük əhəmiyyəti var. Çünki Azərbaycan ərazisindən keçən bizim əsas çayların mənbələri başqa ölkələrdə yerləşir - Kür çayı, Araz çayı, Samur çayı. Bizim bu 3 əsas çayımızın mənbələri başqa ölkələrdə yerləşir. Əlbəttə ki, 4 böyük çayın mənbəyinin ölkəmizin ərazisində olması böyük üstünlüyümüzdür. Ancaq bu ərazilər işğal altında idi. İndi bu ərazilər işğaldan azad edilib. İşğaldan azad edilmiş torpaqların və orada həyatın bərpası üçün əlbəttə ki, çay resurslarımızın çox böyük əhəmiyyəti olacaqdır. Artıq müvafiq göstərişlər verilib və su anbarlarının tikintisi nəzərdə tutulur. Bu, özlüyündə kənd təsərrüfatının inkişafına, ekoloji tarazlığın təmin edilməsinə çox böyük təsir göstərəcək amillərdən biridir”.

Prezidentin hər belə çıxışı Azərbaycan vətəndaşlarında əminlik yaradır ki, keçmiş məcburi köçkünlər tezliklə doğma yurdlarına qayıdacaq, işğaldan azad edilmiş ərazilərdə bərpa işləri sürətlənəcək, doğma elinə qayıdanlar təsərrüfatla məşğul ola biləcəklər. Çünki cənab Prezidentin yürütdüyü siyasət insanların rifah halının daha da yaxşılaşmasına xidmət edir. Məlumdur ki, bütövlükdə azad edilmiş bölgələrin təbii ehtiyatları, o cümlədən su ehtiyatları çox böyükdür. Bu da əhalinin məskunlaşması, kənd təsərrüfatı və ümumilikdə iqtisadiyyatın inkişafı üçün böyük potensialın mövcudluğu deməkdir.

Bununla belə dünyada müşahidə edilən su ehtiyatlarının azalması tendensiyası yaddan çıxmamalı, gözardı edilməməlidir.

> "Yaxşı olardı ki, dəniz kənarında su şirinləşdirici zavodlar tikilsin və dənizdən əldə edilən su bitkilərin suvarılmasında, avtoyuyucu məntəqələrdə, sənaye müəssisələrində, broyler fabriklərində və s. bu kimi yerlərdə istifadə olunsun"

### Yeni qurulan su anbarları su ehtiyatlarımızın qorunmasını təmin edəcək

Qeyd edək ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmi feysbuk səhifəsində ”Ekspert saatı” canlı yayım layihəsi icra edilir. Bu günlərdə ”Ekspert saatı”nda Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Su ehtiyatlarının idarə edilməsi şöbəsinin müdiri Mütəllim Əbdülhəsənov əhalini maraqlandıran məsələlər barədə canlı yayımda danışıb. Şöbə müdiri bildirib ki, Azərbaycanda 140-dan çox su anbarı, bu anbarlarda 21.9 milyard kubmetr su var. Bu sular kənd təsərrüfatının inkişafında mühüm rol oynayır: ”Son dövrlər yağıntıların az olması su anbarlarında suyun azalmasına səbəb olub, lakin görülən tədbirlər çərçivəsində bu problemi stabilləşdirmək mümkün olub”.

Şöbə müdiri deyib ki, ölkə Prezidentinin təsdiq etdiyi tədbirlər planı çərçivəsində Azərbaycanda 10 su anbarının yenidən qurulması və yenilərinin tikilməsi nəzərdə tutulur: ”Bunlar əsasən Böyük Qafqaz dağlarının ətəyində olan çaylarımız, məsələn, Əlicançay, Qudyalçay, Vəlvələçay, Qaraçay, Qusarçay, Ağsuçay, Türyançay, Kiçik Qafqazda isə Zəyəmçay su anbarlarının tikilməsi nəzərdə tutulur. Bu su anbarlarının texniki-iqtisadi əsaslandırmaları hazırlanır. Bununla bağlı aidiyyəti dövlət qurumları fəaliyyət göstərir. Hesab edirik yaxın illərdə bu su anbarlarının tikintisinə başlanılacaq”.

Şöbə müdiri vurğulayıb ki, Bakıda fəaliyyət göstərən təmizləyici qurğular vasitəsilə formalaşan tullantı sularının təqribən 50 faizə qədəri təmizlənmə prosesindən keçir. Bu qurğuların idarə edilməsində boşluqlar var. Bəzi hallarda normalara cavab vermir, amma istənilən halda sular təmizlənir: ”Pandemiya dövründə insanlar daha çox sanitariya qaydalarına əməl edirlər. Əllərin dəfələrlə yuyulması təmiz suyun kifayət qədər çox istifadəsinə gətirib çıxarır. Nəticədə kanalizasiyaya axıdılan tullantı suların həcmi çoxalır. Bu da bilavasitə çirklənməyə gətirib çıxaran amillərdəndir. Bu hallar digər regionlarda da var. Bu sular çayların çirklənməsinə də səbəb olur. Yaxşı olar ki, gələcəkdə bu sulardan təkrar istifadə məsələsi önə çəkilsin”.

### Yağış sularından da istifadə olunacaq

Su ehtiyatları təkcə Azərbaycanda, yaxud da regionda azalmır. Bu proses dünya üzrə müşahidə edilir. Amma hər ölkə qarşıda onu gözləyən su qıtlığından çıxmağın yollarını arayır. O cümlədən Azərbaycan da. ETSN-in Su ehtiyatlarının idarə edilməsi şöbəsinin müdiri Mütəllim Əbdülhəsənov bildirib ki, son 7-8 ildə Azərbaycanda, o cümlədən regionda iqlim dəyişmələri nəticəsində su ehtiyatlarımız azalır. Bu, quraqlığın nəticəsidir. Bununla buxarlanmalar və su itkilərimiz çoxalır. Bütün bunlar nəzərə alınaraq, ölkədə kifayət qədər tədbirlər həyata keçirilir. Çaylardan götürülən suyun qənaətlə istifadə olunması, israfçılığa yol verilməməsi ölkədə ETSN tərəfindən aparılan əsas işlərdən biri olub.

Son dövrlər həmçinin Xəzər dənizinin səviyyəsi azalmağa doğru gedir. Bu tendensiya mütəmadi baş verir: ”Bu, neçə yüz illər əvvəl də baş verib. Azalma və qalxmalar olub. Həm də çaylarımızda su səviyyəsində azalmalar müşahidə olunur. Azərbaycanda 20 ildə çayların suyu 10-15 faiz azalıb. Bu həm də Volqa, Ural çaylarına aid edilir. Bu azalmalar, digər hidroloji amillər Xəzər dənizinin də suyunun azalmasına gətirib çıxarır. Hazırda bu, kritik həddə gətirib çıxarmayıb. Amma bu hal baş verir və hesab edirik ki, müəyyən dövrdən sonra vəziyyət stabilləşəcək. Proqnozlar göstərir ki, stabilləşmə mütəmadi baş verir. Bununla bağlı narahatedici amil görmürük”.

Şöbə müdiri qeyd edib ki, hövzə prinsipi ilə bağlı qanunvericilik aktları yoxdur: ”Biz çaylarımızı hövzə prinsipi ilə idarə etsək, hardasa suyun bol, hardasa az olması ilə rastlaşmayacağıq. Hövzə prinsipinin tətbiqinə nail olsaq, suyun rejimi, bölüşdürülməsi ilə bağlı bir çox məsələlər öz həllini tapa bilər”.

Hövzə şuralarının yaradılması, hövzə prinsipi ilə idarə olunması, çayların idarəedilmə planlarının hazırlanması dövlət səviyyəsində tətbiq olunması qarşıda duran məqsədlərdəndir: ”Artıq su ilə bağlı tədbirlər planında Milli Strategiyanın hazırlanması məsələsi qoyulub. Bu il ərzində strategiyanı hökumətə təqdim edəcəyik. Bu sahədə qurumların rəyləri öyrənilir”. Şöbə müdiri qeyd edib ki, gələcəkdə yağış sularından da istifadə ediləcək. Bir çox ölkələrdə, o cümlədən qardaş Türkiyədə belə təcrübə var. Yağış sularının idarə olunması ilə bağlı da qanunvericilikdə yenilənməyə, təkmilləşməyə ehtiyac duyulur. Bakının yeni hazırlanan Baş planında bu məsələlər aktuallığı ilə qeyd olunacaq. Qanunvericilikdə müvafiq dəyişikliklər ediləcək ki, yağış suları bilavasitə dənizə axıdılmasın, yığılsın, bu sudan gələcəkdə istifadə üçün su anbarları tikilsin. Həmçinin, subartezian, artezian quyularının sifarişi, layihələndirilməsi, qazılması və istismarı ilə bağlı qaydalar hazırlanır.

### “Suyun bölüşdürülməsinə şəffaf nəzarət olmalıdır”

**”Altay” Sosial-İqtisadi Araşdırmalar Mərkəzi İdarə Heyətinin sədri E.Bayramlı ”Şərq”ə açıqlamasında qeyd edib ki, dövlət büdcəsindən və kənar fondlardan ən çox vəsait alanlardan biri su təsərrürafıdır. Əgər burada korrupsiya hallarına yol verilməsə, düzgün və effektiv idarəetmə təşkil olunsa, bu nəhəng pullarla ölkəni cənnətə çevirmək olar:**

- Respublikada suvarılmadığından istifadə olunmayan milyonlarla hektar torpaq sahələri var. Oralara kanallar çəkib, artezian quyuları qazıb, suvarma sistemi qurub böyük təsərüfatlar salmaq, böyük həcmdə ərzaq istehsalı təşkil etmək olar. Nəticədə ölkədə bolluq və ucuzluq yaranar, ölkə ərzaq idxalından azad olar, hətta ixrac edib ölkəyə xeyli valyuta gətirə bilər. Üstəlik, bunun nəticəsində yüngül və yeyinti sənayesi də inkişaf edər. Əhalinin sosial durumu da xeyli yaxşılaşar. Yəni hazırda aqrar sektorda ən böyük problem su problemidir. Ümumiyyətlə, Azərbaycan içməli su ehtiyatının az olduğu ölkələrdəndir. Bu ehtiyatın da 70 faizdən çoxu ölkədən kənardakı mənbələrdən formalaşır. Qlobal su böhranı yarandıqda bizimlə qonşu ölkələr həmin çaylarda su ehtiyatının hamısını özlərinə sərf edəcəklər, bu tərəfə bir qram da su keçməyəcək. Gürcüstan Kürün, Ermənistan Arazın, Rusiya Samurun bütün suyunu özlərinə sərf edəcəklər. Digər kiçik çayların çoxunun da mənbəyi qonşu ölkələrdədir. Bu çox ciddi strateji təhlükədir, təhlükənin qarşısını almaq üçün əsaslı layihələr işlənməlidir. Bununla bağlı ciddi strateji proqram hazırlanmalı və təcili icrasına başlanmalıdır. Su israfının qarşısı alınmalı, suyun bölüşdürülməsinin uçotuna şəffaf və mükəmməl nəzarət sistemi olmalıdır - həm dövlət, həm də qeyri-hökumət təşkilatları və media tərəfindən. Su anbarlarının və artezian quyularının sayı sürətlə və kəskin artırılmalıdır. Ərzaq sənayesinə aid olmayan sənaye müəssisələrində içməli suyun istifadəsinə son qoyulmalıdır. Yaxşı olardı ki, dəniz kənarında su şirinləşdirici zavodlar tikilsin və dənizdən əldə edilən su bitkilərin suvarılmasında, avtoyuyucu məntəqələrdə, sənaye müəssisələrində, broyler fabriklərində və s. bu kimi yerlərdə istifadə olunsun. Bakıya verilən təbii içməli su isə yalnız mənzillərə və idarələrə yönəldilməlidir. Bu halda Bakıya gələn su mənbələrində gərginlik azalar, yeraltı su hövzələrinin istismar sürəti və həcmi azalar.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Hədəflər dəyişib

## Qərbin və ABŞ-ın Rusiyanı tam parçalamaq planı yoxdur



"Qərb Rusiyanı Sovet İttifaqı kimi parçalamağa cəhdlər göstərməyə başlayıb". Bunu rusiyalı politoloq İqor Korotçenko deyib. Ekspert Qərbin müxalifət lideri Aleksey Navalnının həbsi ətrafında oyun oynadığını iddia edib: "Qərb artıq müxalifət lideri Aleksey Navalnıya dəstəyini gizlətmir, onun hakimiyyətə gəlməsi üçün şərait yaratmağa çalışır.

Qərbin burada bir sıra məqsədləri var. İlk növbədə, Rusiyanı zəiflətmək və iplərini öz əlinə almaq üçün müdafiə qabiliyyətini, iqtisadiyyatını, elmini, texnoloji inkişafını sarsıtmağa çalışır və Navalnıdan bu məqsədlə istifadə edir.Ölkəmizin tarixində belə hal artıq baş verib. Buna görə də bu gün Qərb Navalnının köməyi ilə Sovet İttifaqının dağılması ilə nəticələnən uğurlarını təkrarlamağı gözləyir”.

**Mövzu ilə bağlı fikirlərini ”Şərq”lə bölüşən politoloq Xəyal Bəşirov bildirib ki, zamanında dünyanın super güclərindən biri olan Sovetlər Birliyi Qərbin və xüsusilə**

*Ən azından bu niyyət Çinlə hesablaşma bitənə qədər aktual ola bilməz*

**də, ABŞ-ın əsas hədəfi olub. Onun sözlərinə görə, həmin dövrlə yanaşı artıq şərtlər də dəyişib:** ”Düzdür, ABŞ özünün qərbli müttəfiqləri ilə SSRİ-ni məğlubiyyətə uğratdı. Bu prosesdə onun yaxın qonşularından da məharətlə istifadə edildi. SSRİ-nin siyasi və hüquqi varisi olan Rusiyanın da tam parçalanması və ondan sonra yarana biləcək çoxsaylı idarəolunmaz dövlətlər təbii ki, Qərbi qane etmir. Ancaq bu prosesə mane olan əsas amil Çinlə bağlıdır. Əksinə, dünya miqyasında ”parçala, hökm sür” taktikasını məharətlə həyata keçirən güclər vaxtilə SSRİ-ni dağıtmaqda yararlandıqları Çinin özünə qarşı Rusiyanı hazırda istifadə etməkdədirlər. SSRİ-yə qarşı mübarizədə Çin də iştirak etsə də, əslində onların Qərblə maraqları yalnız Sovetlər Birliyinə münasibətdə uzlaşırdı. Ancaq hazırda vəziyyət və hədəflər tam dəyişilib. ABŞ-ın və Qərbin əsas düşməni və narahatçılıq obyekti hələ XIX əsrin əvvəllərində dahi Napoleon tərəfindən ”yatmış nəhəng” adlandırılan Çin dövlətidir”.

**X.Bəşirov vurğulayıb ki, hər gün inkişaf edən və mövcud potensialı ilə fövqəldövlət olan ABŞ-a hələ ki, yeganə alternativ ola biləcək Çindir:** ”Çin Qərbi o qədər çox narahat edir ki, digər dövlətlərlə hesablaşmaq arxa plana atılır. Bu gün bir çoxları ilə zamanında müttəfiq və bəziləri ilə isə SSRİ-nin tərkibində birgə təmsil olunan ətraf dövlətlərin demək olar ki, hamısı ilə pis münasibətdə olan Rusiya Qərbi tam qane edir. Hazırkı Rusiyanın güclənməsi Qərbi narahat etdiyi qədər, onun daha da zəifləməsi və parçalanması da narahat edir. Çünki bu, çox böyük ərazilərin Çinə yem ola biləcəyi baxımından təhlükəlidir. Məhz bu səbəblərdən də, hesab etmirəm ki, hazırda Qərbin və ABŞ-ın Rusiyanı tam parçalamaq kimi bir planı var. Ən azından bu plan Çinlə hesablaşma bitənə qədər aktual ola bilməz”.

**Aynurə Pənahqızı**

## Qonşumuz GUAM PA-da söz sahibi oldu

### Gürcüstan sədrliyi dövründə Azərbaycanın maraqlarını qoruyacaq



**GUAM Parlament Assambleyasının videokonfrans formatında 15-ci Büro iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda GUAM PA-nın sədri, qurumda Azərbaycan nümayəndə heyətinin rəhbəri Elnur Allahverdiyev və nümayəndə heyətinin üzvü Nəsib Məhəmməliyev iştirak ediblər. Tədbirdə GUAM Parlament Assambleyasının komitələrində 2021-ci il üçün milli nümayəndə heyətlərinin tərkibinin təsdiqlənməsi, Büronun növbədənkənar iclasının nəticələri, Gürcüstandakı Parlament seçkilərində qurumun müşahidə missiyasının işi, GUAM PA-nın 13-cü iclasının Bəyannamə layihəsi və digər məsələlərə baxılıb. Tədbirdə GUAM Parlament Assambleyasına sədrlik Gürcüstana təhvil verilib. Bundan əvvəl həmin quruma Azərbaycan sədrlik edib. Elə isə indi nələr dəyişəcək? **Millət vəkili, politoloq Elşad Mirbəşiroğlu ”Şərq”ə açıqlamasında həmin suala Azərbaycan-Gürcüstan əlaqələri kontekstindən yanaşaraq cavab verdi:** ”Gürcüstanın Cənubi Qafqazda həyata keçirilən layihələrdə birbaşa əlaqəsi var. Eyni zamanda biz iki müstəqil dövlət olaraq bütün sahələrdə əməkdaşlıq edirik. Azərbaycan Gürcüstanın iqtisadi inkişafında və enerji təchizatında mühüm rol oynayır. Əlaqələrimizin hazırkı xarakteri onu deməyə əsas verir ki, GUAM PA-ya Gürcüstanın sədrliyi dövründə də ölkəmizin maraqları qorunacaq. Ümumiyyətlə, bizim əlaqələrimiz inkişafa meyillidir. Gürcüstan isə əlaqələrimizin daha geniş müstəviyə keçməsində maraqlıdır. Fikrimcə, Gürcüstanın GUAM PA -ya sədrliyi tərəflər arasındakı münasibətlərin daha geniş məcrada inkişafına zəmin yaradacaq. Eyni zamanda post-müharibə dövründə Azərbaycanın ədalətli mövqeyi dəstəklənəcək”.

**Kənan**

## Yenilməz ordumuz güclənir

### Hərbçilərimiz Türkiyə silahlarından istifadəni öyrənir



Azərbaycan dünya ölkələrinə mesaj verir ki, tək deyilik. Qardaş Türkiyə və Pakistan yanımızdadır

**Türkiyə və Azərbaycanın Qarsda keçirilən birgə hərbi təlimləri davam edir.**

”Qış təlimi-2021”də Türkiyə Respublikasının Qars şəhərində Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçularının da iştirakı ilə tank və top atəşləri icra edilib. Türkiyənin Milli Müdafiə Nazirliyi bu barədə ”Twitter” hesabında paylaşım edib.

Diqqətə çatdırılıb ki, Türkiyə Azərbaycan birgə təlimlərində iştirak edən qəhrəman tankçılar və topçular hədəfləri dəqiq atəş zərbələri ilə məhv edir. Həmçinin qurumdan təlimlərin sabahkı mərhələsində jurnalistlər üçün açıq olacağı bildirilib. KİV nümayəndələri artıq Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus təyyarə ilə Ankaradan Qarsa gətirilib.

**Hərbi təlimlərlə bağlı fikirlərini ”Şərq”lə bölüşən ehtiyatda olan polkovnik Elxan Qəniyev Azərbaycan və Türkiyə arasında keçirilən hərbi təlimlərin böyük əhəmiyyət kəsb etdiyini bildirib:**

”Biz Türkiyə ilə birgə təlimlərin keçirilməsinə həmişə hazır olmuşuq. Yenilməz Ordumuz daha da güclənir. Bu təlimlərdə qardaş Türkiyənin yeni silahlarından istifadəni öyrənmiş olacağıq.

Türkiyə və Azərbaycanın dediyi kimi ”Turan” ordusu yaradılır. Prosesin gerçəkləşməsi üçün müəyyən addımlar atır və irəliləyirlər.

Azərbaycan dünya ölkələrinə mesaj verir ki, tək deyilik. Qardaş Türkiyə və Pakistan yanımızdadır. Ona görə hər kəs gələcəkdə nələr olacağını düşünməlidir”.

**Aygün Tahirqızı**

# Ermənilər ağıllarını başına toplamalıdı

## Azərbaycan yarımçıq qalmış işini istənilən vaxt tamamlaya bilər

Azərbaycanın Qarabağı güc yolu ilə azad edib istəyinə nail olduğunu görən Ermənistan da qonşu dövlətlərlə əlaqə yaratmağa can atır.



Ermənistan XİN başçısı Ara Ayvazyan ”Ermənistan hökuməti hesab edir ki, Qarabağda status-kvo güc yolu ilə dəyişdiriləndən sonra Türkiyənin Ermənistan ilə sərhədləri bağlı saxlamasına səbəb yoxdur” - deyə fikir bildirib.

Ayvazyanın açıqlamasından da aydın olur ki, Ermənistan Türkiyə ilə sərhədləri açmağa, iqtisadi əlaqələri gücləndirməyə hər vəchlə səy göstərir.

**Politoloq Qabil Hüseynli ”Şərq”ə açıqlamasında bildirdi ki, ermənilər 10 noyabrda imzalanan müqaviləyə nə qədər ki, əməl etmir, onların bu cəhdləri də baş tutan deyil:** ”Moskva razılamşası var və bu razılaşmanın müddəaları var. Onlar həmin müddəaları pozmağa çalışır.

Orada deyilirdi ki, sonuncu erməni əsgəri Azərbaycan ərazisindən çıxmalıdır. Amma hələ də bəzi ərazilərdə əsgərləri qalıb.

İndi gah Araik Arutyunyan kimisə ”vəzifəyə təyin edir”, bizə qarşı müəyyən iddialar irəli sürür, Ermənistandan gələn müxtəlif çinli məmurlarla görüşür və s... Bir sözlə, suyu bulandıran hərəkətlər həddən çoxdur. Daha sonra başda Koçaryan olmaqla revanşistlər yenidən müharibəyə başlayacağıq deyə meydan sulamağa çalışırlar. Yaxşı, adamdan soruşarlar ki, ay filankəsin oğlu, müharibəyə başlayıb hansı itirilmiş torpaqları geri qaytaracaqsan? İtirilmiş torpaqlar var? İşğal edilən torpaqlar Azərbaycanın idi, onu da Azərbaycan Ordusu geri qaytardı. Yəni dünya o qədər yiyəsiz, beynalxalq hüquqlar o dərəcədə ölübmü ki, bu revanşistlər gəlib bizim torpaqları yenidən işğal edə? O dövrlər artıq çoxdan ötüb keçib”.

*Q. Hüseynli əvvəlcə ermənilərin öz ordularına, sonra da büdcələrinə baxıb hərəkət etməli olduqlarını tövsiyə edir:*

”Diqqətlə baxın, ordunuzun böyük bir hissəsi məhv edilib, büdcəniz başdan-başa boşalıb. Heç pensiyaçılara verməyə pul tapmırsınız.

Yəni demək istəyirəm ki, Sarkisyan, Koçaryan, Daşnaksütyun partiyası və s. meydanı qızışdırmaqda davam edir. Amma bilmirlər ki, bölgədə yeni geosiyasi reallıqlar yaranır. Bölgədə Türkiyə var, Pakistanın təsiri var.

Azərbaycan ordusu əvvəlkindən də güclü vəziyyətdədir, lakin Ermənistan qoşunları sıxılmış, məhv olmuş haldadırlar. Qüvvələr nisbətini nəzərə almadan belə həyasız açıqlamalar verən erməni rəsmiləri Rusiya və Fransaya arxalanırlar. Amma bunun əzabını onlar özü çəkəcək.

Onlar nə deyir desin, necə deyərlər, Azərbaycan barıtı həmişə quru saxlayır. Yəni Azərbaycan bir qədər yarımçıq qalmış işini tamamlamaq üçün kiçik bir imkandan istifadə edəcək və bölgədə ajiotaja son qoyacaq.

**Ağarza Elçinoğlu**

# Ailələrin suçu böyükdür

## Uşaqları erkən nikaha təşviq etmək yox, onlara alternativ imkanlar yaradılmalıdır



Lerikdə bir ayın gəlini qonşuda yaşayan kişi ilə qaçıb. Hadisə fevralın 6-da Kaqon kəndində baş verib. Kənd sakini 31 yaşlı Məhəbbət Nağıyev qonşuluqda yaşayan 19 yaşlı Astara sakinini Bakıya qaçırıb.

M.Nağıyevin bundan əvvəl iki dəfə ailə həyatı qurduğu və boşandığı bildirilir. Həyat yoldaşı qaçırılan Araz Səfərov hadisə ilə bağlı açıqlama verib. O, həyat yoldaşı ilə bir aydır ailəli olduğunu deyib.

Onun sözlərinə görə, pandemiya olduğu üçün yığıncaq keçirmədən nişanlısını öz evlərinə gətirib: "Qonşu kişi ilə bir ildən çox olar ki, aralarında münasibət olub. Öz xoşu ilə qaçdığını deyib. Buna görə də polisə müraciət etmədim".

**Baş verənlərlə bağlı "Şərq"ə açıqlama verən "Gənc Vətəndaş" Maarifləndirmə İctimai Birliyinin icraçı direktoru Günel Səfərova bildirib ki, ölkəmizdə nikahın könüllü bağlanan bir müqavilə olduğunu deyirlər. Düşünürlər ki, hər iki tərəf arasında nikah rəsmiləşibsə, deməli, artıq evlidirlər:** "Amma nikahın əsas prinsipi könüllülükdür. 19 yaş ailə həyatı qurmaq üçün erkəndir. Neçə gündür ki, ölkəmizdə erkən nikahlarla bağlı ciddi müzakirələr gedir. 19 yaşlı şəxs qanun qarşısında yetkin yaşa çatmış sayılır. Bəzən 20 yaşında belə nikaha girmək çətin olur, çünki yetkinlik anlayışı orqanizmin yalnız tibbi baxımdan yox, mənəvi baxımdan da formalaşmasıdır. Baş verən hadisəyə gəlincə, yəqin ki, tərəflərdən biri nikaha könüllü daxil olmayıb. Bundan başqa həmin insanın ailə həyatına hazır olmadığı da görünür".

**G.Səfərova qeyd edib ki, bütün məişət problemlərinin baş verməsinin kökündə iqtisadi bir faktor dayanır:** "Təəssüf ki, bəzən övladlarımızı bəlli bir çərçivəyə salırıq və deyirik ki, "sən ancaq bu çərçivədə olmalı, kənara çıxmamalısan". 19 yaşlı qız ailə həyatı qurub, amma o, ali məktəbdə oxuya, hansısa sənət sahibi olub, iqtisadi asılılığını aradan qaldıra bilərdi. Bu zaman ailə həyatı qurmaq fikri olmayacaqdı. Etiraf edək ki, ən çox valideynlər övladlarını ailə qurması üçün təşviq edirlər. 18-19 yaşlı qız nə başa düşür ki, ailə qurmağın qərarını da özü versin? Ona görə də ilk olaraq ailələr anlamalıdırlar ki, uşaqları nikaha təşviq etmək yox, onlara alternativlər hazırlamaq lazımdır. Bu baxımdan baş verən hadisədə ailələrin də günahkar olduğunu hesab edirəm".

**Yeganə Bayramova**

## Qiymətlərin bahalaşması gözlənilən idi

### Pandemiya insanları bağ və həyət evləri almağa həvəsləndirdi



**Bakıda fərdi yaşayış və bağ evlərinin qiymətində həm ay, həm də il ərzində əhəmiyyətli dərəcədə artım qeydə alınıb.**

Yanvar ayı ərzində fərdi yaşayış və bağ evlərinin qiymətində 8.99 faiz artım müşahidə edilib. Bu artım ötən ilin eyni dövrü ilə müqayisədə 10.87 faizə bərabər olub.

**Əmlak bazarında müşahidə edilən artımla bağlı "Şərq"ə açıqlama verən AVCİYA-nın Seçki Qərargahının rəhbəri Məhərrəm Zülfüqarlı qeyd edib ki, evlərin qiymətinə təsir edən başlıca amil pandemiya şəraitinin mövcudluğudur:** "İnsanlar karantin rejimi müddətində bütün vaxtlarını evdə keçirməyə məcbur oldular. Həyət və bağ evlərindən fərqli olaraq, bina evində yaşayan insanlar pandemiya dövrünü gərginlik içində keçirir. Çünki uzun bir müddət ərzində dörd divar arasında qalmaq onlara heç də xoş olmayıb. Məhz bu səbəbdən əhali bağ evlərinin dəyərini daha yaxşı anlayıb. Hamı mövcud vəziyyəti dəyərləndirərək daha çox bağ və həyət evləri almağa meyl edir. Bunun nəticəsində həmin evlərin qiymətində müəyyən qədər artım hiss olunur".

**Aytac Ali**



# Başqa variant ola bilməz

## Qarabağdakı ermənilər ancaq Azərbaycan ordusunda xidmət keçməlidir

Ermənistandan gənc əsgərlər artıq Qarabağa göndərilmir. Bu barədə Ermənistan mətbuatında məlumat yayılıb. Məlumatda qeyd edilib ki, orduya qış çağırışı faktiki olaraq fevral ayının əvvəllərində başlayıb və Ermənistandan olan çağırışçılar yalnız ölkə daxilindəki hərbi hissələrdə xidmət edəcəklər.

Daha əvvəl mətbuatda və sosial şəbəkələrdə Dağlıq Qarabağın "müdafiə ordusunun" ləğvi barədə məlumatlar yayılmışdı. Qarabağ separatçılarının lideri Araik Arutyunyan isə yayılan xəbərləri təkzib etmişdi.

Xatırladaq ki, Ermənistanda əsgər valideynləri mütəmadi olaraq aksiya keçirərək övladlarının Qarabağda ölməsini istəmədiklərini və onların həmin ərazilərə göndərilməməsini tələb edirdilər.

**Mövzu ilə bağlı fikirlərini "Şərq"lə bölüşən Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı bildirib ki, bu, Azərbaycanın əldə etdiyi uğurlardan biridir. O, diqqətə çatdırıb ki, 10 noyabr razılaşmasında bu məsələlərin hamısı öz əksini tapıb:** "Nəzərdə tutulub ki, Qarabağ bütövlükdə Azərbaycan ərazisidir. Bu səbəbdən də orda gedən bütün proseslər ölkəmizin nəzarətində olmalıdır. Təbii ki, əgər Qarabağda Azərbaycanın razılığı olmadan hərbi birləşmə varsa, bu, qeyri-qanuni silahlı dəstə hesab olunur. Azərbaycan da buna görə qanunauyğun hərəkət etməlidir. Qeyd edim ki, Qarabağda yalnız Azərbaycanın icazəsi ilə hərbi birləşmə ola bilər. Ya da ki, öz hərbi birləşməsi olmalıdır".

**A.Nağı qeyd edib ki, artıq ermənilər yaxşı başa düşür ki, Azərbaycanın bu mövqeyini qəbul etmək lazımdır:** "Dağlıq Qarabağdakı ermənilər əgər hərbi xidmət keçmək istəyirlərsə, bu zaman onlar Azərbaycan ordusunda hərbi xidmətdə olmalıdırlar. Başqa cür də olmalı deyil. Hesab edirəm ki, bütün bunlar Azərbaycanın davamlı şəkildə 10 noyabr razılaşmasının şərtlərinin həyata keçirilməsinin göstəricisidir. Ermənistan artıq məcburiyyət qarşısında Azərbaycanın tələblərini yerinə yetirir".

**Aynurə Pənahqızı**

# Borçalını da Dərbəndin aqibəti gözləyir

## Gürcüstandakı məktəblərdə Azərbaycan tarixi tədris edilmir



Gürcüstanda yaşayan soydaşlarımızın təhsil problemi yenidən aktuallaşıb. Belə ki, etnik azlıqlar üçün nəzərdə tutulmuş imtahanla universitetlərə qəbul olunan azərbaycanlılar Gürcüstan dövlətinin tələbələr üçün yaratdığı imkanlardan yararlana bilmirlər. Eyni fakültəyə gürcü dilində imtahan verib, uğurlu nəticə qazanan azərbaycanlı tələbələr dövlət hesabına təhsil alır.

Gürcüstanda yaşayan soydaşlarımızın ana dilində təhsil alması hüququ tanınsa da, Azərbaycan dilində ödənişli əsaslarla oxumaq məcburiyyətində qalırlar. Xatırladaq ki, bir müddət öncə Gürcüstan təhsil sisteminə əsasən müəllimlərə müxtəlif statusların verilməsində azərbaycanlı müəllimlər bu sahədə kifayət qədər çətinliklə qarşılaşıblar. Buna səbəb müəllimlərin dövlət dili olan gürcü dilində ümumi qabiliyyət imtahanını verməyə sövq edilməsi idi.

**Gürcüstandakı soydaşlarımızın təhsil problemi ilə bağlı "Şərq"ə danışan tarixçi-alim Kərəm Məmmədov bildirib ki, iki çıxış yolu var:**

"Ya Tiflis şəhərində Azərbaycan təhsil müəssisələrində çalışacaq kadrlar hazırlanmalıdır, ya da heç olmaya hər il BDU-nun Qazax filialında 25 tələbə yetişdirilməlidir.

Ana dilində təhsil almış tələbəylə Azərbaycanda təhsil almış tələbənin keçdiyi proqramlarda fərq var. Gürcüstandakı məktəblərdə Azərbaycan tarixi tədris edilmir.

Bu isə onların III ixtisas qrupuna hazırlaşmağında əngəl yaradır.

Soydaşlarımız verilən limit əsasında təhsil ala bilərlər. Hazırda Yer kürəsində 60 milyona yaxın azərbaycanlı yaşayır. Dağ rayonlarının birində istənilən peşə məktəbinin nəzdində yataqxana tikib, ali məktəb təşkil etmək olar.

Suriyada, Əfqanıstanda, İranda belə bir forma var idi. Elə edə bilərik ki, bir il ərzində Avropadakı azərbaycanlılar təhsil alsın, növbəti il isə Asiyada yaşayanlar.

Bu formada mədəniyyətimizi, dilimizi yaya bilərik. Artıq Dərbənddə dilimiz unudulub, xəbəriniz var?! Borçalını da belə aqibət gözləyir".

**Aygün Tahirqızı**

# Hər sahibkar öz standartları ilə işləyir



## "Tətbiq olunan ƏDV-dən azad edilmə çörəyin ucuzlaşmasına səbəb olmayacaq"

Buğda idxalı və satışının ƏDV-dən azad edilməsi müddəti 5 ildən 7 ilədək uzadıla bilər. Bu barədə fevralın 9-da Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin onlayn formatında keçirilən növbəti iclasında məlumat verilib.

Deputatlar müzakirələrdə qanun layihəsinin ikinci oxunuş üçün hazırlanmış variantında buğdanın idxalı və satışının, həmçinin buğda ununun və çörəyin istehsalı və satışının ƏDV-dən azad edilməsi müddətinin 5 ildən 7 ilədək uzadılmasını (2017-ci il yanvarın 1-dən etibarən), eləcə də kəpəyin istehsalı və satışının ƏDV-dən azad edilməsi müddətinin 3 ildən 5 ilədək (2019-cu il martın 1-dən etibarən) uzadılmasını, qəlyan üçün hazırlanan tütünlərin aksiz vergilərinə cəlb edilməsini, həmçinin elektron siqaretlər üçün mayeyə tətbiq olunan aksiz vergisinin hər litr üçün 100 manat olmasını (birinci oxunuşda hər litr üçün 220 manat idi) nəzərdə tutan dəyişikliklərə münasibət bildiriblər.

**Buğda idxalı və satışının ƏDV-dən azad edilməsi ilə bağlı fikirlərini "Şərq"lə bölüşən iqtisadçı-ekspert Rauf Qarayev vurğulayıb ki, tətbiq olunan azad olma çörəyin ucuzlaşmasına səbəb olmayacaq. Onun sözlərinə görə, buna səbəb isə bəzi sahibkarların öz standartları ilə iş görmələridir:** "Əvvəla qeyd edim ki, indiki dövrdə bazarda alıcılara "Karmen" unu 28 manata, "Mehriban" isə 30 manata təklif olunur. Bəzi yerlərdə isə qiymət 35 manata kimi yüksəlir. Misal olaraq regionlardan biri olan Sabirabad rayonundakı vəziyyətə nəzər salaq. Bu baxımdan orada çıxan "Muğanın səsi" qəzetinin araşdırmasına diqqət yetirək. "Unun və çörəyin qiymətlərini artıran işbazlara qarşı biganə olmayaq?!" adlı yazıda qeyd olunur ki, "AS-GÜN" ticarət mərkəzinin "Bərəkət" çörəkbişirmə müəssisəsi demək olar ki, rayonun 25-30 faizini çörəklə təmin edir. Müəssisə 24 saat fasiləsiz işləyir, satışa müxtəlif çəkidə 4 çeşiddə ağ undan ("Karmen") məhsul çıxarır. Sobada bişirilən təndir çörəyi adı ilə 370-372 qramlıq çörək 30 qəpiyə, 392 qramlıq 30 qəpiyə, 520 qramlıq çörək isə 40 qəpiyə satılır. Rəqəmlərdən də göründüyü kimi, "Bərəkət"dən satışa verilən 30 qəpiklik çörəyin çəkisi normadan 100-110 qram, 40 qəpiklik çörəyin çəkisi 180-200 qram əskikdir. Cavad kürə çörəyi adı ilə satışa çıxarılan Cavad kəndində istehsal olunan 30 qəpiklik çörəyin çəkisi 325 qramdır, bu da normadan 175 qram azdır".

*İqtisadçı-ekspert qeyd edib ki, ümumiyyətlə, hansı şəraitdə bişirilməsindən və keyfiyyətindən asılı olmayaraq rayonda satışa çıxarılan ayrı-ayrı sexlərdə hazırlanan çörəklərin çəkisində normadan ən azı 100-200 qram fərq var:* "Bu qədər tədbirlərin görülməsinə baxmayaraq vəziyyət dəyişməz olaraq qalmaqdadır. Hətta məlumat dolaşır ki, müəyyən qrup adamlar regionlara gedərək vəsait toplayırlar və nəticədə bəzi sahibkarlar buna arxayın olub öz standartları ilə iş görürlər. Deməli, tətbiq olunan azad olma çörəyin ucuzlaşmasına təsir göstərməyəcək. Vəziyyətin müsbətə doğru dəyişməsi üçün məmur və vətəndaş arasında körpü olmalıdır. Mütəmadi olaraq məmur vətəndaşla təmas qurmalı və özü birbaşa məsələyə müdaxilə etməlidir. Təəssüf ki, Azərbaycanda belə məmurlar çox azdır. Nəticədə də problemlər azalmaq əvəzinə çoxalır".

**Aynurə Pənahqızı**

# İnsanlar müflisləşir

## Vətəndaş bir maşın özünə, birini də Gömrük Komitəsinə alır



"Kompleks araşdırmalara ehtiyac var. Adı ən çox korrupsiya ilə birgə çəkilən DGK isə ləğv edilməlidir"

**Dövlət Gömrük Komitəsi (DGK) ilə bağlı narazılıqlar getdikcə artmaqdadır.**

Sözügedən qurumun yarıtmaz fəaliyyətini təsdiqləyən növbəti fakt isə xarici ölkələrdən Azərbaycana gətirilən maşınlara qoyulan gömrük rüsumudur. Həmin rüsum, az qala, avtomobilin öz dəyərində olur. Yəni sürücü bir maşını özünə, birini də DGK-ya alır.

**İqtisadçı-ekspert Nazim Bəydəmirli bu barədə "Şərq"ə danışarkən gömrük rüsumunun belə çox olmasının məntiqə sığmadığını söylədi:** "Gömrük rüsumu rəqiblərinə adekvat maşın istehsal edən ölkələrdə bu qədər çox ola bilər. Məqsəd daxili istehsalı qorumaqdır. Ancaq təəssüf ki, bizdə belə maşın istehsalı yoxdur. Rüsumlar isə vətəndaşların rifahına uyğun deyil. DGK maşınların fantastik bazar qiymətini təkif edir. Bu, dövlət büdcəsindəki proqnoz göstəricilərini artırmaq üçündür. DGK Nazirlər Kabinetinə müvafiq "sifarişlər" verir və vəzifəli şəxslərin köməkliyi ilə təklifini qəbul etdirir. Son nəticədə insanlar müflisləşir. Əslində həmin qurumun vəzifəsi ancaq daxili istehsalı qorumaqdır".

*N.Bəydəmirli, həmçinin çıxış yollarını da göstərdi:* "Ekoloji durumu qorumaq adı ilə avtomobillərə müxtəlif dərəcədə gömrük rüsumu tətbiq edilir. Təəssüf ki, hibrid avtomobillərə lazımi qədər "yaşıl işıq" yandırılmır. Hökumət köhnə maşınları yığıb, onun dəyərini vətəndaşa ödəməlidir ki, yeni avtomobil almağa maraq yaransın. Lakin bu da olmur. İnsanlar daha az xərcə başa gəldiyi üçün ucuz maşın alırlar. Beləliklə, Rusiyanın xüsusi xidmət orqanlarının Azərbaycan iqtisadiyyatına təsirləri barədə məqamlar üzə çıxır. Odur ki, kompleks araşdırmalara ehtiyac var. Adı ən çox korrupsiya ilə birgə çəkilən DGK isə ləğv edilməlidir".

**Kənan**



## Sürücülərə 118 milyon manat cərimə yazılıb

**Ötən il qayda pozan sürücülərə yazılan cərimələrin məbləği açıqlanıb.**

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 2020-ci ildə yol hərəkəti qaydaları əleyhinə aşkarlanmış inzibati xətaların sayı 3631,1 min olub. Xətaların 39,9 faizi yolda müəyyən edilmiş hərəkət sürəti həddinin aşılması, 21,7 faizi dayanma və ya durma qaydalarının pozulması, 9,2 faizi yol nişanlarının və ya yolların hərəkət hissəsinin işarələrinin tələblərinə riayət edilməməsi, 8,4 faizi svetoforun və ya nizamlayıcının qadağanedici işarəsi verilərkən hərəkətin davam etdirilməsi, 6,5 faizi təhlükəsizlik kəmərini bağlamadan nəqliyyat vasitəsinin idarə olunması, 3,6 faizi epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması, qalan hissəsi isə digər səbəblər üzrə aşkarlanıb.

*Qaydaların pozulmasına görə 118,2 milyon manat məbləğində cərimələr tətbiq edilib.*

# Maşın bazarında tam aktivlik 6 aydan sonra başlayacaq

## Dizel mühərriki ilə işləyən avtomobillər tədricən tarixə qovuşacaq



Karantin rejiminin yumşalması səbəbilə ölkəmizdə avtomobil bazarı aktivləşməyə başlayıb. Pandemiya dövründə insanların çoxu "evdə qal" çağırışına əməl edirdi. Məhz buna görə də maşın bazarında alıcılıq qabiliyyətinin aşağı düşməsi müşahidə olunmağa başlamışdı. Artıq sərt karantin rejiminin aradan qaldırılması ilə əlaqədər olaraq bu sahədə də müəyyən aktivlik gözə çarpır. İl dəyişməsi, manat üzərindəki neqativ təsirlərin getdikcə azalması və bu kimi amillər avtomobil bazarına müsbət təsirlərini göstərməyə başlayıb.

Bazarda olan hazırkı situasiya əvvəlki dövrlərə nisbətən bir qədər fərqlidir. Verilən məlumata əsasən dizel mühərriki ilə işləyən avtomobillərə tələbat azalıb. Halbuki, bundan öncə alıcıların əksəriyyəti, xüsusilə taksi sürücüləri dizel mühərrikli maşınlara üstünlük verirdi. Buna səbəb dizelin qiymətinin benzinə nəzərən ucuz olması idi. Lakin indi qiymətlər arasında fərqin azalması benzinlə işləyən avtomobillərə tələbatı artırıb.

**Avtosfer.az saytının baş redaktoru, nəqliyyat üzrə ekspert Elməddin Muradlı "Şərq"ə açıqlamasında bildirib ki, avtomobil bazarında vəziyyətin tam düzəlməsi pandemiya dövründən 6 ay sonra müşahidə oluna bilər:** "Karantin rejiminin və bəzi məhdudiyyətlərin aradan qaldırılması nəticəsində avtomobil bazarında müəyyən irəliləyişlər nəzərə çarpır. İnsanlar arasında avtomobil alıb-satmaq ənənələrinin bərpası özözlüyündə çox yaxşı bir haldır. Çünki həmin sahədən yüzlərlə insan qazanc əldə edir. Bu, bir növ, onlar üçün iş yerlərinin də bərpa edilməsi deməkdir. Amma onu da etiraf etmək lazımdır ki, bazarda əvvəlki dövrdə olan aktivliyin çox az hissəsini görmək mümkündür. Müşahidə olunan bu hal çox təbiidir. Pandemiya və ardınca müharibə şəraiti insanların büdcəsinə olduqca mənfi təsir göstərib. Hazırda avtomobil alqı-satqısı ilə məşğul olan şəxslər çox azdır. Adətən, insanlar iri mühərrikli avtomobillərini satıb, daha ucuzunu alırlar. Alıcılıq qabiliyyətinə təsir edən başqa bir amil də, taksilərə marağın artmasıdır. Bunun nəticəsində taksi sürücüləri tez-tez avtomobillərini yeniləmək istəyirlər. İndi bazarda əvvəlki illərə nisbətən alıcılıq qabiliyyəti 30-35 faiz təşkil edir. Vəziyyətin tamamilə düzəlməsi ancaq pandemiyadan altı ay sonra ola bilər". *Ekspert həmçinin qeyd edib ki, yalnız bizdə deyil, əksər ölkələrdə alıcılar dizel mühərrikli maşınlardan imtina edir:* "İnsanların böyük əksəriyyəti hibrid avtomobillərə üstünlük verir. Dizel mühərriki ilə işləyən avtomobillər yaqin ki, yavaş-yavaş tarixə qovuşacaq. Çünki artıq bir neçə ölkə bundan imtina edib. Hətta nəhəng avtomobil istehsalçısı olan Almaniya da dizel mühərrikli maşınlardan istifadə etmir. Ölkəmizdə isə insanların bir qismi hələ də bu tip avtomobillərə maraq göstərir. Amma gördüklərimizə nəzərən deyə bilərik ki, zaman keçdikcə hibrid avtomobillərə tələbat çoxalacaq. Beləliklə, ətraf mühitin qorunması üçün sağlam avtomobil parkına nail ola biləcəyik".

**Aytac Ali**



## Rusiya ilə İran birgə peyvənd istehsal edəcək

**Rusiya və İran koronavirusa qarşı "Sputnik V" peyvəndinin birgə istehsalı barədə müqavilə imzalayıblar. APA-nın Moskva müxbirinin xəbərinə görə, bu barədə İranın Rusiyadakı səfiri Kazım Cəlali bildirib.**

"Peyvəndin birgə istehsalı barədə danışıqlar başa çatıb. Yaxın vaxtlarda İranda birgə peyvəndin istehsalının şahidi olacağıq", - deyə iranlı diplomat vurğulayıb.

*Qeyd edək ki, dünəndən İranda Rusiyanın "Sputnik V"-dən istifadə edilməklə əhalinin peyvəndlənməsinə başlanılıb.*

# Hikmət babanın evi təmir olunur



II Qarabağ müharibəsinin başladığı ilk günlərdə Şəkinin Baş Küngüt kəndinin yaşlı sakini Hikmət baba kimi tanıdığımız Hikmət Musayevin öz təqaüdündən 180 manat Silahlı Qüvvələrə Yardım Fonduna ianə etməsi haqda xəbər vermişdik. Bu hərəkət sosial şəbəkələrdə geniş rezonans doğurmuşdu.

Ən çox diqqət çəkən məqam isə Hikmət Musayevin ASAN Xidmət mərkəzinə nimdaş çəkmə ilə gəlməsiydi. Babanın comərdliyi hər kəsi heyrətləndirmişdi.

Artıq bir neçə aydır ki, Hikmət Musayevin evinin təmiri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sosial tərəfdaşları hesabına aparılır. Nazirliyin Sosial Xidmətlər Agentliyinin mətbuat katibi Murad Həşimov Sputnik Azərbaycan-a açıqlamasında bu istiqamətdə görülən işlərdən danışıb: "Evin təmiri davam edir, artıq tavan və döşəmə vurulub. Sanitar qovşaq düzəldilir. Eyni zamanda, evin önündə də təmiri işləri davam etdirilir".

*Qısa zamanda təmir prosesinin yekunlaşacağı gözlənilir.*

### Təbrik edirik!



**Ömürün 5 yaşı** tamam olur. Sevgili Ömür! Bütün ömrün sevgi ilə keçsin. Çünki yalnız sevgi ilə yaşanan günlər ömürdəndir.

## Rəmiş sağalır

### Güllü onun müalicəsindən razılıq edir



**Bir müddətdir gitara ifaçısı, Xalq artisti Rafiq Hüseynov (Rəmiş) Hepatit-C xəstəliyindən əziyyət çəkir.** O, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın göstərişi ilə xəstəxanaya yerləşdirilib.

**"Şərq"ə musiqiçinin son sağlıq durumu haqqında məlumat verən ömür-gün yoldaşı Güllü Hüseynova Rəmişin müalicəsinin yüksək səviyyədə davam etdiyini söyləyib:** "Bakı Sağlamlıq Mərkəzindədir. Huşu gedir-gəlir. Həkimlər, tibb bacıları daim maraqlanırlar. Allah vitse-prezidentimiz Mehriban Əliyevanı qorusun. Bu gün Rəmiş nəfəs alırsa, göydə Allahın, yerdə Mehriban Əliyevanın sayəsindədir. Allah Prezidentimizi və Mehriban xanımı ölkəmizin başından əskik etməsin. Təşəkkürlərimi bildirirəm".

**Samirə Ərəbova**

## Tüstülənmənin qarşısı alınıb

### Azərbaycan Xəzərdə problemlə üzləşən Qazaxıstan gəmisinə kömək edib




**Xəzər dənizində Qazaxıstanın "Kazmortransflot" Milli Dəniz Gəmiçiliyi şirkətinə məxsus "Turkestan" yük gəmisində tüstüləmə olub.**

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-dən (ASCO) verilən məlumata görə, hadisə ilə bağlı "Turkestan"nın heyət üzvləri yaxınlıqda üzən digər gəmilərdən yardım istəyib. ASCO-a məxsus "Merkuri-1" gəmisinin dənizçiləri yanğından təhlükəsizlik sistemlərini hazır vəziyyətə gətirərək çağırışa reaksiya verib. Lakin "Turkestan" gəmisinin heyətinin operativ müdaxiləsi nəticəsində tüstülənmənin qarşısı alınıb. Məlumata görə, bundan sonra "Kazmortransflot" Milli Dəniz Gəmiçiliyi ASCO-ya "Turkestan" gəmisinin sahilə gətirilməsi üçün müraciət edib. Dərhal ASCO-ya məxsus "Yarenqa" yedək gəmisi hadisə yerinə göndərilib. "Türkestan" gəmisi təhlükəsiz vəziyyətdə "Yarenqa" gəmisinin köməkliyi ilə 10 fevral tarixində sahilə gətirilib. Qeyd edək ki, hadisə zamanı gəmi yüksüz olub. Heyət üzvləri isə özlərini yaxşı hiss edirlər.

## "Nar" "Karabakh is Azerbaijan" beynəlxalq onlayn şahmat seriyasına dəstək olub




**Gənclərin intellektual inkişafına hər zaman xüsusi önəm verən "Nar" chess.az saytının "Karabakh is Azerbaijan" beynəlxalq onlayn şahmat seriyasına dəstək olub.**

Seriya 8 turnirdən və böyük finaldan ibarətdir. Turnirlərin hər biri Vətən müharibəsi nəticəsində işğaldan azad edilmiş rayonların adını daşıyır.

Martın 14-də baş tutacaq böyük finalda 8 turnirin nəticələrinə görə, 10 ən güclü şahmatçı mübarizə aparacaq. Qalib gələcək şahmatçılar "Nar" tərəfindən dəyərli hədiyyələrlə mükafatlandırılacaq. Seriya lichess.org şahmat platforması üzərindən keçirilir. Qeyd edək ki, koronavirus infeksiyası ilə əlaqədar olaraq ölkədə karantin rejiminin davam etməsi səbəbindən şahmat yarışları onlayn keçirilir.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 90%-ni əhatə edir və 8700-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# Rusiyada üzən qəsəbələr salınacaq

### Baş nazir bu tip evlərin istifadəsi ilə bağlı təklifləri hökumətə təqdim etməyi tapşırıb

Rusiyada yeni növ yaşayış yeri - hausbotlar və ya suda özü hərəkət edə bilən qayıq-evlər yaratmaq planlaşdırılır. Rusiya Federasiyasının Baş naziri Mixail Mişustin 1 iyun 2021-ci il tarixinə kimi bu tip evlərin istifadəsi ilə bağlı təklifləri hökumətə təqdim etməyi tapşırıb.




Bu barədə Nazirlər Kabineti rəhbərinin Kareliyaya işgüzar səfərinin ardından hökumətin internet saytında məlumat yerləşdirilib.

"Su hövzələrində qayıq-evlərin istifadəsi ehtimalı ilə bağlı Rusiya Federasiyası hökumətinə təkliflər göndərilsin", - deyə məlumatda bildirilir.

Tapşırığın icrası ilə bağlı məsuliyyət isə Təbii Sərvətlər Nazirliyi, Tikinti Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, "Rosprirodnadzor" və "Rosreyestr" rəhbərliyinin üzərinə düşür.

*Qeyd edək ki, bir qədər bundan əvvəl Moskva bölgəsinin üç su anbarı hövzəsində hausbot və riverhauslardan (pontonlar üzərində qurulmuş yaşayış konstruksiyaları) ibarət qəsəbələrin salınması planlaşdırılmışdı. Layihəyə əsasən, bu üzən qəsəbələrin hər biri sahəsi 100 kvadratmetrdən 160 kvadratmetrə qədər olan 15-30 hausbotdan ibarət olmalı idi. Bir belə qəsəbənin salınması üçün təxminən bir hektar su səthinə ehtiyac var.*

"Şərq" qəzetinin kollektivi Nəvai Mətinə bacısı **Zərifə İbrahimovanın** vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət etsin!**

Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 273

# Baş nazir evində təmizlik işləri apardı

Danimarkalı nazirin paylaşımı gündəm oldu



**Danimarkanın Baş naziri Mette Frederiksenin sosial mediadakı paylaşımı böyük marağa səbəb olub.**

Unikal.org bildirir ki, Frederiksen həftə sonunu evdə keçirdiyini və çoxdan bəri təmizlik etmədiyini bildirən bir şəkil yayımlayıb. Baş nazirin həmin fotosu sosial şəbəkədə gündəm yaradıb.

# 9-cu əsrə aid üzük tapılıb

Üzərində ərəbcə “ya Allah” sözləri yazılıb



**Stokholm Universitetinin tədqiqatçıları qazıntılar zamanı 9-cu əsrə aid üzük tapıb.**

”Şərq” xarici mətbuata istinadən xəbər verir ki, tapılmış üzüyün üzərinə bənövşəyi daş və üzərində ərəbcə ”ya Allah” sözləri yazılıb. Tapıntı İsveçin Birka şəhərində vikinqlərə aid ticarət mərkəzində aşkar edilib.

Qeyd edək ki, əvvəlcə arxeoloqlar üzüyün üzərindəki daşın bənövşəyi ametistdən hazırlandığını zənn ediblər. Lakin sonradan elektron mikroskop vasitəsilə daşın rəngli şüşədən - o vaxtlar üçün nadir materialdan hazırlandığı müəyyən olunub. Alimlər qeyd ediblər ki, 1000 ildən daha əvvəl hazırlanan üzük, vikinqlər ilə islam dünyası arasındakı əlaqəni sübut edir.

**Aynurə**

# Sevgilisi ilə dalaşdı...

Kosmetoloq fikirli olub müştərisinin üzünü pis hala salıb



**Gözəlləşmək üçün getdiyi gözəllik salonunda üzü yanan qadının həyatı kabusa çevrilib.**

Milli.Az haberler-ə istinadla bildirir ki, Antalyada yaşayan 42 yaşlı Aslı İlhan adlı qadın gözəlləşmək istəyinin qurbanı olub. Üz quruluşunda və dərisində dəyişikliklər etdirmək istəyən qadın kosmetoloqun səhvi səbəbindən eybəcər hala düşüb. Lazer prosesi zamanı sevgilisiylə dalaşan kosmetoloq fikirli olması səbəbindən qadının dərisini yandırıb. Üzündə ləkələr əmələ gələn Aslı İlhan kosmetik mərkəzi polisə verəcəyini söyləyib və bu zaman təhdid olunub.

# Qiyməti 8 min dollardır

Məşhur brendin geyimi tənqid edildi



**Məşhur markalardan biri ”Louis Vuitton”ın istehsal etdiyi yeni geyim səs-küyə səbəb olub.**

Firma üzərində 14 yun oyuncağın olduğu yeni geyim satışa çıxarıb. Qiyməti 8 min dollar (13 min 600 manat) olan köynək sosial şəbəkələrdə tənqid atəşinə tutulub və bəyənilməyib.

Hətta onu təqdim edən modelin məhz geyim səbəbilə məyus olduğu bildirilib.

”Twitter”də müştərilərin ağır tənqidlərinə məruz qalan məhsula ”Evdə də hazırlana bilər. 3 yaşında uşağın geyinəcəyi geyimdir” deyə, şərh yazan istifadəçilər də olub.

Sadəcə, müştərilər deyil, rəqib başqa firmalar da ”Louis Vuitton”ın yeni məhsulunu məsxərəyə qoyub.



# Koronavirusa çox bənzəyən yeni virus...

## Alimlər bu virusu Taylandın şərqində yaşayan yarasalarda tapıblar







**Yeni koronavirus növünün mənşəyini araşdıran alimlər fərqli yeni bir virus növü aşkarlayıblar.**

”Şərq” xarici KİV-lərə istinadən xəbər verir ki, ”Sars-CoV-2” virusuna 90 faiz genetik oxşarlığı olan bu virus Taylandın şərqində yaşayan yarasalarda tapılıb. Tədqiqatçılar ”RacCS203” adlandırdıqları bu virus da daxil olmaqla, koronavirusla əlaqəli virusların bir çoxunun Asiya ölkəsində yaşayan yarasalarda olduğunu söyləyiblər. Son əldə edilən məlumatlara görə, koronavirusun mənbəyi olduğu düşünülən həmin ərazi 4800 kilometrəyə qədər genişləndirilib. Sinqapur Universitetinin tədqiqatçıları bu yeni virusun ”SARS-CoV-2”nin genetik koduna 91,5 faiz oxşarlığı olduğunu təsbit ediblər. Hətta bu yeni virusun Çinin Vuhan əyalətində yaşayan yarasalarda tapılan yeni koronavirus növünün genomuna 93,6 faiz bənzərliyi müəyyənləşib. Bütün bunlarla yanaşı, tədqiqatçılar Cənubi Taylandda antikorları da araşdırıblar. Antikorların pandemiya virusunu neytrallaşdıraraq təsirsiz hala gətirildiyi bildirilsə də, lakin bu durumun yeni növ koronavirusun Cənub-Şərqi Asiyada yayılmasının başqa bir sübutu olduğu araşdırılmağa başlayıb.

**Aynurə**

# Özündən 51 yaş böyük kişi ilə evləndi

Biri-birini görən kimi aşiq olublar





**29 yaşlı qadın özündən 51 yaş böyük olan kişi ilə ailə həyatı qurub.**

”Şərq” xarici mətbuata istinadən xəbər verir ki, hadisə Cənubi Afrikada baş verib. Paytaxt Keyptaunda hüquqşünas olan Terzel Rasmus özündən 51 yaş böyük olan Uilson Rasmus ilə evlənib. Cütlüklər ilk dəfə 2016-cı ildə tədbirdə tanış olublar. Onlar görən kimi biri-birlərinə aşiq olduqlarını və aralarındakı yaş fərqindən asılı olmayaraq evlənməyə qərar verdiklərini söyləyiblər. Terzel Rasmus aralarındakı münasibətin ”təbii və gözəl” olduğunu bildirib. Uilson da Terzel ilə birlikdə olmaqdan məmnundur. Terzel özündən 51 yaş böyük olan Uilsonla evlənməsinə gəlincə, bildirib ki, onu buna görə çox tənqid ediblər. Lakin o hesab edir ki, onun Uilsonla evlənməyi doğru qərardır. 29 yaşlı gənc qadın əlavə edib ki, anası da bu evliliyə razılıq verib.

**Aynurə**

# Özünə baxmır

Aktrisanın halı hər kəsi təəccübləndirdi



**Ötən gün aktrisa Reyçl Bilson anasının Los-Ancelesdəki evindən çıxarkən kameralara tuş gəlib.**

39 yaşlı aktrisa baxımsızlığı ilə müzakirələrə səbəb olub. Əvvəllər alış-verişə belə səliqəli saç düzümü, bol makiyaj və dəbli geyimlərlə gedən Bilsonun dağınıq saçı və əyninə böyük olan ev paltarı görənləri təəccübləndirib. Görüntülərdən aktrisanın uzun müddət anası ilə qaldığı aydın olub. O, əşyalarını avtomobilinin yük yerinə yığarkən anası və qızı da ona kömək edib.